

## Şuşada V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılışı oldu

*Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalın açılışında iştirak ediblər.*

Səh.3


# UNİKAL

№16 (2101) 13 may 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## "Sülh müqaviləsi üzrə işə başlamağa hazırıq" - Ceyhun Bayramov

*"Azərbaycan sülh müqaviləsi üzərində işə başlamağa hazırdır. İnanırıq ki, bugünkü görüş təmasların davam etdirilməsinə müsbət təsir edəcək".*

*"Unikal" xəbər verir ki, bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Düşənbədə jurnalistlərə açıqlamasında deyib.*

*"Bu gün nəqliyyat-kommunikasiya xətlərinin açılması işində irəliləyiş yoxdur. Ümid edirik ki, bu gün keçirilən görüşdə müsbət nəticə əldə edərik",- XİN başçısı bildirib.*

Səh.3



Səh.9

## İdarəetmədə mühüm dəyişiklik: İcra hakimiyyətləri ləğv edilir

## "Bəzi nazirlər deputatları saymırlar"



*Məlum olduğu kimi, Prezident İlham Əliyev "Cənubi Qafqaz: inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda çıxışı zamanı icra hakimiyyətlərinin ləğvinin anonsunu verdi. Belə ki, bu istiqamətdəki islahatlar zamanı icra hakimiyyətlərinin Prezidentin xüsusi nümayəndəsi ilə əvəzlənəcəyi gözlənilir.*

Səh.4

## Ədalət Vəliyev partiya sədri ilə görüşdü



*Mayın 12-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ölkəmizdə aparılan iqtidar-müxalifət dialoqu çərçivəsində Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayevlə görüşüb.*

Səh.2

## İsa Qəmbər pensiyasından narazıdır



*Müsavat partiyasının sabiq başqanı İsa Qəmbərə təyin olunan pensiyanın məbləği sosial şəbəkələrdə ciddi müzakirələrə səbəb olub. "Unikal" xəbər verir ki, Müsavat Partiyasının başqan müavini Fərəc Kərimli sosial şəbəkədə qeyd edib ki, İsa Qəmbərə 180 AZN məbləğində pensiya təyin edilib.*

Səh.9

# "Mənim mirasım qızıma yetər" - Aygün Kazımova



***Xalq artisti Aygün Kazımova "10-da görüşək" proqramına qonaq olub.***

"Unikal" xəbər verir ki, o verilişdə bəzi açıqlamalar verib. "Elə sənətçilər var ki, qazanır işinə xərcləyir, eləsi də var hər hansı arzusu, problemini həll edir. O sənətçilərdənəm ki, nə qədər çox qazancım olsa, bir o qədər də layihələrim olur. Bundan həzz alıram.Düşünürəm ki, etdiklərim doğrudur. Məndən sonra mirasım, tutaq ki, evim və sair, qızıma qalanlar yetər ona. Qalan şeylər, bunlar mal-mülkdür, Süleymana qalmayan dünya kimə qalacaq? Amma yaşayan olacaq mahnılarım, kliplərim, filmlərim, konsertlərim. Onlar ömür boyu yaşayacaq. Əşya isə xarab olub gedəcək" deyə, o, bildirib.

# Samirə niyə Nadirə dəstək olmadı?



***"Avroviziya 2021" təmsilçimiz Samirə Əfəndi bu ilki yarışma iştirakçısına dəstək olmaması ilə bağlı ona ünvanlanan tənqidlərə cavab verib.***

Axşam.az-ın məlumatına görə, bu barədə ifaçı paylaşım edərək müsabiqəyə Norveç təmsilçiləri tərəfindən dəvət aldığını açıqlayıb:

"Dünəndən bəri saysız mesajlar alıram ki, bu ilki iştirakçıya niyə dəstək olmuram. Birincisi bu il "Avroviziya"ya dəvəti Norveç tərəfindən almışam və öz komandalarına dəstək kimi məni buraya dəvət ediblər. İkincisi məni bizim böyüklərimiz dəstəkləmişdi. Başqa Aygün Kazımova, Demet Akalın, Tünzalə Ağayeva, Röya Ayxan, Zülfiyyə Xanbabayeva məni dəsklemişdi. Bilmirəm bu ilki iştirakçıya dəstək olacaqlar, ya yox. Götürüb onlara yazım, mənə yox.

Mənə bu qədər məktub yazmaq lazım deyil. Buna ehtiyac yoxdur. Sizcə nə qədər doğru olardı ki, Norveçin dəvəti ilə qonaq kimi gəlib digər ölkəni dəstəkləyim? Məncə bu doğru deyil. Mənə yazmağa ehtiyac yoxdur. Öz işimi, nə etdiyimi gözəl bilirəm. Çox sağolsun Norveç komandası mənə dəstək olub, dəvət edib, mən də dəstəyimi onlardan əsirgəmirəm".

Qeyd edək ki, bu il müsabiqədə Azərbaycanı "Fade to back" mahnısı ilə Nadir Rüstəmli təmsil edir. O, bu gün ikinci yarımfinalda səhnəyə çıxacaq.



# Rəqsanədən qızına sərt sözlər: "Yalan deyirsən..."

***Rəqsanə İsmayılova yeni layihəyə başlayır.***

"Unikal" lent.az-a istinadən xəbər verir ki, müğənni bu barədə öz "Instagram" hesabında paylaşım edib.

Məsələ burasındadır ki, qızına "Məndən gizlətdiyin nəsə var?" - sualına Aysun "yox" cavabı verəndən sonra Rəqsanənin reaksiyası belə olur: "Yalan deyirsən...".

Beləliklə, Rəqsanə qızının yalan danışdığını böyük auditoriya qarşısında açıb-tökür.

# "Allahın verdiyi övlada qarşı çıxdım, peşmanam" - Mətanət Əsədova

***Müğənni Mətanət Əsədova "1 dəqiqə" verilişində qonaq olub.***



İfaçı övladını dünyaya gətirməkdən imtina etdiyini etiraf edib: "Allahın verdiyi övlada vaxtında qarşı çıxdım. Çox peşmanam. İndi də gec deyil. Amma mənim güvənim yoxdur. Olsun, tək qalım. Özüm-özümü aldadıb, camata xoş olsun, efirdəyəm, məni belə sevəcəklər, birdən kimsə saymaz, bunlar mənə lazım deyil. İçim-içimi yeyincə özümü aldada bilmərəm həyatda. Nə də imkan verərəm ki, kimsa məni aldatsın. Niyə gözümlə görə-görə uçuruma atım özümü? Belə alındı. Hamının həyatında enişli-yoxuşlu yollar olub. O bir qismət, alın yazısı idi, alınmadı. Deməli hələ Allah bunu mənə rəva bilmir. İstər həyatda, istər sevgidə, istər atdığım addımda ağlımla fikirləşmədim, ürəyimlə yanaşdım. Bu da mənim axırıma çıxdı".

# Təranə Səmədova narkotikə görə saxlanılıbmış

***Tanınmış prodüser Təranə Səmədovanın polis tərəfindən saxlanılmasının səbəbi məlum olub.***

Axşam.az xəbər verir ki, o, qanunsuz olaraq narkotik maddə gəzdirdiyi üçün saxlanılıb.

Onun barəsində İnzibati Xətalar Məcəlləsinin 206-cı (Qanunsuz olaraq narkotik vasitələrin, psixotrop maddələrin istehlakı, satış məqsədi olmadan şəxsi istehlak miqdarında hazırlanması, əldə edilməsi, saxlanılması, daşınması və ya göndərilməsi) maddəsi ilə protokol tərtib edilib və baxılması üçün Nəsimi Rayon Məhkəməsinə göndərilib. Məhkəmə T.Səmədovanın hamilə olduğunu nəzərə alaraq, ona həbs cəzası verməyib. Prodüser 400 manat məbləğində cərimə olunaraq sərbəst buraxılıb. Xatırladaq ki, T.Səmədova ötən ay da polisə müqavimətə görə saxlanılmış və 200 manat cərimə ödədikdən sonra sərbəst buraxılmışdı.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## MEDİA "Sərhədsiz Reportyorlar" təşkilatına məktub ünvanlayıb

***Məktubda Təşkilatın "2022-ci il Dünya Mətbuat Azadlığı İndeksi"nə münasibət bildirilərək, demokratik cəmiyyətin mühüm komponentlərindən biri olan media və ifadə azadlığının ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklərə uyğun olaraq tam təmin edildiyi, medianın inkişafının dövlətin prioritet fəaliyyət istiqaməti olduğu vurğulanıb.***

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı əsasında Medianın İnkişafı Agentliyinin yaradılması, media islahatlarının dərinləşdirilməsi, özəl sektoru media ilə əməkdaşlığa cəlb edən böyük layihələrin reallaşdırılması, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi qeyd edilərək, müvafiq beynəlxalq reytinqlər tərtib edilərkən bu müsbət təşəbbüslərin nəzərə alınmamasından təəssüf hissi keçirildiyi bildirilib.

Bildirilib ki, 2021-ci ildə "Sərhədsiz Reportyorlar" Təşkilatının rəsmi veb-saytında xidməti vəzifələrini yerinə yetirərkən ermənilərin Kəlbəcər rayonuna basdırdıqları minaya düşərək həlak olan jurnalistlərlə bağlı məlumatın təhrif edilərək təqdim edilməsi, faciənin əsl səbəbi və mahiyyətinin açıqlanmaması, həmin məlumatın qərəzli olaraq Azərbaycanın əleyhinə istifadə edilməsinə imkan yaratmış və əsassız yanaşmaların formalaşması ilə nəticələnmişdir.

"2022-ci il Dünya Mətbuat Azadlığı İndeksi" ilə əlaqədar Təşkilatın Şərqi Avropa və Mərkəzi Asiya şöbəsinin rəhbəri xanım Janna Kavelyenin "Amerikanın Səsi" beynəlxalq multimedia xəbər təşkilatına müsahibəsində səsləndirdiyi fikirlər, o cümlədən Azərbaycanın yeni reytinqini əsaslandırmaq üçün irəli sürülən arqumentlər özlüyündə tutarlı əsaslara söykənmir və müvafiq İndeks Azərbaycanda media azadlığının vəziyyəti ilə bağlı obyektiv reallığı əks etdirmir.

Məktubda "Media haqqında" Qanunun müvafiq maddələri bir daha izah edilir, Azərbaycanda jurnalist fəaliyyətinə görə heç kimin həbs edilmədiyi vurğulanır və istənilən sahədə inkişafın qarşılıqlı hörmətə, konstruktiv əməkdaşlığa, bütün tərəflərin obyektiv, qərəzsiz yanaşmasına əsaslanmalı olduğu bildirilir: "İnanırıq ki, bir neçə mənbədən, o cümlədən bizim mənbələrdən istifadə edilməsi "Sərhədsiz Reportyorlar" Təşkilatının təqdim etdiyi xəbərlərin və hesabatların dəqiqliyini, obyektivliyini və etibarlılığını artıracaq, ixtilafa yol açan halları aradan qaldıracaqdır".

Məktubun sonunda bir daha qeyd edilir ki, Medianın İnkişafı Agentliyi "Sərhədsiz Reportyorlar" Təşkilatı, eləcə də media sahəsində fəaliyyət göstərən digər təşkilatlarla dialoqa hazırdır.

# İdarəetmədə mühüm dəyişiklik: İcra hakimiyyətləri ləğv edilir

## Azərbaycanda mərkəzi icra orqanlarından sonra optimallaşma növbəsi yerli icra orqanlarındadır

***Azərbaycanda icra hakimiyyətlərinin ləğvi yenidən gündəmin əsas müzakirə mövzularından birinə çevrilib. Prezident İlham Əliyev aprelin 29-da ADA Universitetində "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda keçirilən beynəlxalq konfransdakı çıxışında söylədiklərindən sonra bu istiqamətdə gözləntilər daha da artıb.***

Xatırladaq ki, dövlət rəhbəri həmin çıxışında "Bizim Qarabağda yeni idarəçilik sistemimiz var. Mənim Qarabağ və Şuşa üzrə xüsusi nümayəndələrim var" deyə bildirmiş və digər ərazilər üçün də xüsusi nümayəndələr təyin ediləcəyini söyləmişdi: "Onların hələlik təyin edilməməsinin səbəbi orada hələ ki, fəal yerləşmə prosesinin aparılmaması ilə əlaqədardır, amma bu da olacaq. Biz, bu yeni idarəçilik modelini sınaqdan keçiririk. Çünki mövcud regional idarəçilik sistemi Sovet İttifaqının çökməsindən sonra yaradılıb və fikirləşirəm ki, bu, o qədər də hərtərəfli düşünülməmişdir. Buna görə də çoxlu suallar var. Çox güman ki, bilirsiniz, çoxlu, bəlkə də 10-dan çox regional rəhbər şəxslər rüşvət, səhv idarəçilik və digər yanlış hərəkətlərə görə həbs olunub. Bu proses ictimai şəkildə baş verib, rüşvət prosesi videoya çəkilib. Təəssüf ki, bu sahə korrupsiya ilə çirklənib. Beləliklə, Qarabağda sınaqdan keçirdiyimiz yeni sistem fərqli olacaq və düşünürəm ki, yekun sınaqlar bitəndən sonra bu sistemi Azərbaycanın digər ərazilərinə də tətbiq etmək və regionlarda dövlət idarəçiliyini təkmilləşdirmək mümkün olacaq. Çünki Bakıda qəbul etdiyimiz qərarların hamısı insanların həyat şəraitinin və infrastrukturun yaxşılaşdırılması, iqtisadi inkişaf məqsədi daşıyır, amma bəzən onlar regionlarda icra edilmir və insanlar bunu görmür".



Dövlət başçısının məhz bu sözləri mətbuatda və cəmiyyətdə Azərbaycanın yeni regional idarəetmə modelinə keçidinin anonsu kimi qiymətləndirildi. Unutmayaq ki, son illər ölkədə idarəetmə islahatları keyfiyyətcə yeni mərhələyə qədəm qoyub və müxtəlif nazirliklər ya birləşdirilib, ya da ləğv edilib. Bu komplektləşdirmə idarəetmədə çevikliyə hesablanıb və ekspertlərin fikrincə, tamamilə doğru qərardır.

Struktur islahatları bir müddətdir yerli idarəetmədə də müşahidə olunur - məsələn, şəhər və rayonların səhiyyə, təhsil şöbələri əsasında regional idarələr yaradılıb. Qarşıda isə bu prosesin daha üst mərhələyə keçidi gözləniləndir. Söhbət icra hakimiyyətlərinin ləğvindən və yeni modelin tətbiqindən gedir.

Unutmayaq ki, bir müddət əvvəl bəzi icra hakimiyyətlərinin fəaliyyətləri ilə bağlı aşkarlanan və cəmiyyətə təqdim olunan neqativ hallar bu sahədə köklü islahatların aparılmasının vacibliyi ilə bağlı müzakirələrin açılmasına səbəb olmuşdu. İcra hakimiyyətlərinin ləğv edilməsi, böyük şəhərlərdə mer seçkilərinin keçirilməsi, bələdiyyə institutunun təkmilləşdirilməsi təkliflər sırasında idi.

2021-ci ilin sonlarına doğru isə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında sərəncamı məsələnin əhəmiyyətini yenidən gündəmə gətirdi.

Bəli, bu bir reallıqdır ki, sovetdən qalma icra strukturları subsional olaraq özünü doğrultmur. Və görünən odur ki, ölkədə mərkəzi icra orqanları ilə yanaşı yerli icra orqanlarının fəaliyyətinin də optimallaşdırılması artıq yeni dövrün vacib çağrışlarından birinə çevrilib. Qeyd edək ki, hələ 2016-cı ilin sentyabrında Konstitusiyaya təklif olunan dəyişikliklərlə bağlı keçirilən ümumxalq səsverməsi ərəfəsində də bildirilirdi ki, referendumun ardınca yerli icra hakimiyyətlərinin ləğv olunması və onların əvəzinə vilayətlərin yaradılması realdır. İndi isə bu ehtimalların yaxın gələcəkdə reallaşacağına şübhə yeri qalmır.

"İcra başçıları çox zaman vətəndaşlarla kobud rəftarı, laqeyd münasibəti, korrupsiyaya meylliliyi ilə gündəmə gəlib. Sovet dövrünün idarəetmə sisteminin təsirindən irəli gələn haldır ki, bəzi icra başçıları özlərini az qala əyalət padşahı kimi aparırlar. Diqqətçəkən maraqlı məqamlardan biri də onların bir çoxunun sırf kommunist ruhlu olmasıdır. Müqayisə edəndə icra başçılarının Sovet dövrünün raykom katiblərindən fərqlənmədiyini görürük" deyənlər belə hesab edirlər ki, bu cür şəraitdə sözügedən orqanların ölkədə həyata keçirilən islahatlarla ayaqlaşması qeyri-mümkündür. Onların fikrincə, icra başçılarının bu postlara təyinatla gəlməsi rahatlıq yaradır, vətəndaş qarşısında məsuliyyətlərini dərk etməyə mane olur. "Əgər rayonlara, şəhərlərə əsas rəhbərlik bələdiyyələrə verilsə, mənzərə xeyli dəyişə bilər. Bələdiyyə başçıları, üzvləri növbəti seçkidə səs ala bilmək üçün camaata daha çox can yandıra, onların problemlərinə daha çox həssaslıq göstərə, təmiz işləməyə çalışa bilərlər" - bu da yerli icra hakimiyyətlərinin ləğvini məntiqli sayanların arqumentləridir. Və kifayət qədər güclü arqumentlərdir.

Elə isə yerli icra orqanlarının optimallaşdırılmasına nəinki sürpriz qərar kimi yanaşmaq lazımdır, hətta bu, yuxarıda da vurğuladığımız kimi, dövrün, eyni zamanda "vətəndaşa xidmət, şəffaf və çevik fəaliyyət" mərkəzli siyasi kursun tələbidir.

Eyni zamanda da cəmiyyətin gözləntisidir - xatırladaq ki, 2020-ci ildə Sosial Tədqiqatlar Mərkəzinin (STM) keçirdiyi sorğudan belə aydın olurdu ki, Azərbaycan əhalisinin yarıdan çoxu da yerli icra hakimiyyətlərinə etibar etmir!

Bütün bu reallıqlar fonunda ölkə rəhbərliyinin mərkəzi icra orqanlarından sonra yerli icra orqanlarında da köklü islahatlara hazırlığı tamamilə başadüşüləndir və tədirəlayiqdir.

***Hüseyn İsgəndərov***

# Azərbaycan XİN-dən Paşinyana cavab

## Ermənistan rəhbəri yaxşı olardı ki, öncə Azərbaycan ərazilərinə qanunsuz şəkildə daxil olan erməni əsilli diversantlar barədə danışsın

***"Ermənistan Baş nazirinin Niderlandın Klingendayl Beynəlxalq Münasibətlər İnstitutunda çıxışı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddialar, o cümlədən humanitar məsələlərlə bağlı həqiqətdən uzaq ittihamlar, Ermənistan rəhbərliyinin iki dövlət arasında münasibətlərin normallaşması məsələsində səmimiyyətdən uzaq olduğunu göstərir".***

"Unikal" xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan Baş naziri N.Paşinyanın Niderlandın Beynəlxalq Münasibətlər İnstitutunda çıxışı zamanı səsləndirdiyi fikirləri şərh edərkən deyib.

Birinci növbədə, xatırladırıq ki, Azərbaycan öz ərazilərini işğaldan azad edib bu ərazilərdəki mina problemini, o cümlədən həm 30 ilə yaxın davam edən işğal müddətində sistematik şəkildə, həm də üçtərəfli bəyanat imzalandıqdan sonra əraziləri tərk edərkən Ermənistan tərəfinin məqsədyönlü şəkildə minaları basdırdığını, minaların bölgədə insan həyatına ciddi təhdid doğurduğunu və beləliklə də mina xəritələrinin Azərbaycana təqdim edilməsi üçün Ermənistana təzyiq edilməsi məsələsini dünya ictimaiyyətinin diqqətinə çatdırdığı zaman, əvvəlcə Ermənistan tərəfi ümumiyyətlə, mina xəritələrinin mövcudluğunu inkar edirdi. Daha sonra isə beynəlxalq ictimaiyyətin bu məsələdə mövqeyi ilə üzləşən Ermənistan mina xəritələrini hissə-hissə Azərbaycana təqdim etdi və verilən xəritələrin dəqiqliyi isə 25% təşkil edib. Ümumiyyətlə, Ermənistan tərəfindən mina xəritələrinin təqdim edilməsini humanitar jest kimi qələmə vermək yanlışdır, çünki bu, üçtərəfli bəyanatın imzalanmasından sonra Ermənistanın beynəlxalq humanitar hüquq öhdəliyi idi.



Üçtərəfli bəyanat imzalandıqdan bu günədək əksəriyyəti mülki şəxs olmaqla, 219 nəfər mina qurbanı olub. Əfsuslar olsun ki, vətəndaşlarımız mütəmadi olaraq, o cümlədən Ermənistan tərəfinin xəritələri təqdim etməsindən, habelə iki dövlət liderinin Brüssel görüşündən sonra da mina qurbanına çevrilirlər. Bu ilin yalnız aprel ayında baş vermiş 9 hadisə nəticəsində 10 nəfər minalardan xəsarər alıb.

30 ilə yaxın Ermənistan tərəfindən darmadağın edilən əraziləri hazırda Azərbaycan yenidən qurur, bərpa edir. Onilliklər ərzində torpaqlarından didərgin düşən insanların evlərinə geri qayıtmasını təmin etmək üçün gecə-gündüz iş görülür. Lakin bu ərazilərdəki geniş miqyaslı mina problemi köçkünlərin öz evlərinə tez qayıtmasına ciddi təhdid doğurur. Bunun yeganə səbəbkarı isə Ermənistanın 30 il ərzində həyata keçirdiyi işğalçı siyasət və dağıdıcı, pozucu fəaliyyətdir.

Belə olduğu halda, Ermənistan Baş nazirinin Azərbaycanı humanitar addımlar atmamaqda, saxlanılan erməni əsilli şəxsləri qaytarmamaqda ittiham etməsi yersiz və əsassızdır. Ermənistan rəhbəri yaxşı olardı ki, öncə Azərbaycan ərazilərinə qanunsuz şəkildə daxil olan erməni əsilli diversantların Azərbaycanda saxlanma səbəbini anlasın.

Sözsüz ki, humanitar məsələlər sülh gündəliyinin önəmli tərkib hissəsini təşkil edir və məhz buna səbəbdən Azərbaycan hər zaman humanizm prinsiplərini öz fəaliyyətində rəhbər tutub, hətta 44 günlük müharibə zamanı və müharibə sonrası birtərəfli qaydada humanitar addımlar atıb. Lakin, Ermənistan tərəfi nəhayət başa düşməlidir ki, sülh üçün sadəcə danışmaq yox, hərəkət etmək lazımdır.

Lakin, Ermənistan Baş nazirinin Azərbaycana qarşı hələ də əsassız iddialarla çıxış etməsi, bu ölkənin sülh üçün hərəkətə keçmək istəyini ciddi sual altına alır.

***İnformasiya şöbəsi***

# İsa Qəmbər pensiyasından narazıdır

## O, pensiyaya görə məhkəməyə müraciət edəcək

***Müsavat partiyasının sabiq başqanı İsa Qəmbərə təyin olunan pensiyanın məbləği sosial şəbəkələrdə ciddi müzakirələrə səbəb olub.***

"Unikal" xəbər verir ki, Müsavat Partiyasının başqan müavini Fərəc Kərimli sosial şəbəkədə qeyd edib ki, İsa Qəmbərə 180 AZN məbləğində pensiya təyin edilib.

Partiyanın sədr müavini bildirib ki, Azərbaycan Ali Sovetinin Milli Şurasının deputatı və sədri olmuş, həmçinin prezident səlahiyyətlərini (17 may 1992-16 iyun 1992) icra etmiş İsa Qəmbərə yalnız yaşa görə pensiya təyin edilib.

Fərəc Kərimli Müsavat partiyasının sabiq başqanına təyin olunan pensiyanın məbləğinin qanunsuz olduğunu iddia edib: "Eyni işlərdə çalışmış şəxslərin pensiyası ilə müqayisədə dəfələrlə fərq var".

O, həmçinin İsa Qəmbəri Avropa Şurası məkanında ən az pensiya təyin edilmiş ən yüksək vəzifəli şəxs kimi qiymətləndirib.

İqtisadçı-jurnalist Dünya Sakit isə Müsavat partiyasının sabiq başqanının yalnız yaşa görə pensiya təyin edilməsini "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" qanunla əlaqələndirib. O vurğulayıb ki, qanunda nəzərdə tutulan pensiya təminatı Milli Məclisin ilk üzvlərinə şamil edilməyib.



"Azərbaycan parlamentinin sabiq spikeri İsa Qəmbərə 180 manat pensiya təyin edilib. İsa Qəmbər qanunvericiliyə əsasən, güzəştli şərtlərlə pensiya alan şəxslər kateqoriyasına aid olsa da, onun bu hüquqdan istifadəsinə imkan verilmir". Bu sözləri Modern.az saytına açıqlamasında İsa Qəmbərin vəkili Nemət Kərimli deyib.

O qeyd edib ki, "Əmək pensiyası haqqında qanun"a görə, güzəştli şərtlərlə pensiya alacaq şəxslərin dairəsi müəyyənləşdirilib. Bu siyahıya 1990-cı ildə deputat seçilən şəxsləri daxil etməyiblər: "Məqsəd isə vaxtilə parlamentdə demokratik blokun üzvü olmuş şəxslərin sabiq deputatlar kimi güzəştli pensiya almamağıdır. Lakin qanunda bir cümlə də var ki, keçmiş Ali Sovetdə vəzifə tutmuş şəxslər güzəştli kateqoriyaya aiddir. İsa Qəmbər isə Ali Sovetin sədri olub və güzəştli şərtlərlə pensiya almalıdır. Biz müraciət etdik və iki aydan sonra cavab aldıq. Yazılı şəkildə bildirdilər ki, qanun keçmiş deputatlara şamil edilmir. Halbuki, İsa bəy əslində güzəştli şərtlərlə Milli Məclisin sədrinin maaşının 80 faizi həcmində pensiya almalıdır. (Hazırda Milli Məclisin sədri 2475 manat maaş alır-red.).

Hələlik biz bu cavabdan sonra İsa bəylə məsələni müzakirə edə bilməmişik. Görüşüb, məsləhətləşəndən sonra böyük ehtimalla məhkəməyə müraciətimizi göndərəcəyik".

Məsələ ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu ilə əlaqə saxladıq. Fonddan bildirildi ki, məsələ ilə əlaqədar ictimaiyyətə məlumat veriləcək.



# Məhkəmə İlqar Məmmədovun maddi kompensasiya tələbəni təmin etmədi

***Bu gün Bakı Apellyasiya Məhkəməsi Respublikaçı Alternativ (ReAl) Partiyasının sədri İlqar Məmmədovun maddi kompensasiya tələbəni təmin etməyib.***

Bu barədə "Unikal"a ReAl Partiyasından məlumat verilib.

Xatırladaq ki, Ali Məhkəmə Plenumunun İlqar Məmmədov haqqında verdiyi bəraət qərarı mənəvi kompensasiyanı təyin etmişdi, amma maddi kompensasiya ilə bağlı aşağı instansiya məhkəməsində iddia qaldırılmasının zərurətini qeyd etmişdi.

İlqar Məmmədov həbsdə qaldığı 5,5 il müddətə görə 53 min 757 manatlıq maddi kompensasiya tələbini məhkəməyə ötən il göndərib. Bu ilin fevralında isə Nəsimi Rayon Məhkəməsi onu rədd etmişdi.

"Dövlət Vergi Xidmətinin saytından ödənilmiş vergilərlə bağlı çıxarış da daxil olmaqla mötəbər sübutlar təqdim edilsə də, Apellyasiya Məhkəməsi sənədləri diqqətə almayıb, sayta isə ümumiyyətlə baxmaqdan da imtina edib", - ReAl Partiyasından bildirilib.

İlqar Məmmədov deyib ki, məsələ ilə bağlı indi Ali Məhkəməyə də şikayət veriləcək.

# Deputatlar AŞPA-nın komitə iclaslarında iştirak edəcək

***Mayın 13-də Fransanın Paris şəhərində AŞPA-nın Miqrasiya, qaçqınlar və məcburi köçkünlər komitəsinin iclası keçiriləcək.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a bildirilib ki, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov və nümayəndə heyətinin üzvü Nigar Arpadarai iştirak edəcəklər.

Tədbirdə "Rusiya və Ukrayna münaqişəsi nəticəsində regionda daxili və xarici miqrasiyaların humanitar nəticələri", "Seçkiqabağı kompaniyalarda miqrasiya və sığınacaq məsələlərinin miqrantların qəbuluna və hüquqlarına təsiri" kimi mövzular müzakirə ediləcək, bir sıra təşkilati işlərə baxılacaqdır.

Səməd Seyidov, həmçinin AŞPA-nın mayın 16-17-də keçiriləcək Siyasi işlər və demokratiya komitəsinin iclasında iştirak etmək üçün Yunanıstanın Hanya şəhərində səfərdə olacaq.

İclasda "Yeni çağırışlar qarşısında Avropa təhlükəsizliyinin asimmetriyası", "Şərqi Aralıq dənizində sülh və stabilliyin qorunması", "Şərqi Balkanlar üçün Avropa perspektivinin dəstəklənməsi", "Müxtəlifliyin və inklüzivliyin təşviqində siyasi partiyaların rolu: yeni irqçilikdə azad cəmiyyət xartiyası" kimi mövzularda, həmçinin beynəlxalq silahlı münaqişələr şəraitində Avropa Şurasının rolu ilə bağlı müxtəlif istiqamətlərdə müzakirələrin keçirilməsi nəzərdə tutulub.



# Baş nazir əmr verdi

## Gömrük rüsumlarının dərəcələrində dəyişiklik

***"Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

# Putin İrəvana gedəcək



***Rusiya Prezidenti Vladimir Putin bu ilin sonunda Ermənistana dövlət səfəri edəcək.***

"Unikal" Rusiya mətbuatına istinadən xəbər verir ki, bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan deyib.

"Bizim görüşün gündəliyində Rusiya Prezidenti Vladimir Putinin Ermənistana dövlət səfərinin təşkili məsələləri durur. Bu səfərin ilin ikinci yarısında - oktyabr-dekabr aylarında baş verəcəyi gözlənilir. Əlbəttə, tarixi hələ razılaşdıracağıq", - Ararat Mirzoyan rusiyalı həmkarı Sergey Lavrovla Düşənbədə keçirdiyi görüşdə bildirib.

# Paşinyan Moskvaya çağırıldı

***Ermənistanın Baş naziri Nikol Paşinyan mayın 16-da Moskvaya çağırılıb.***

"Unikal" erməni KİV-lərinə istinadən xəbər verir ki, o, KTMT-nin baş katibi Stanislav Zasın iştirakı ilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sammitində iştirak edəcək.

Bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, "Mayın 16-da KTMT-nin 30 illiyi münasibətilə Moskvada KTMT-yə üzv dövlətlərin sammiti keçiriləcək. Liderlərin görüşü planlaşdırılır. KTMT-nin baş katibi Stanislav Zas və hazırda KTMT-yə sədrlik edən Ermənistanın hazırkı Baş naziri Nikol Paşinyan tədbirin nəticələri barədə jurnalistlərə məlumat verəcəklər".

***Ağarza Elçinoğlu***

# Nazirlərin görüşü başa çatdı: Sülh danışıqları davam edəcək

***Düşənbə şəhərində MDB Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, Rusiya Federasiyasının xarici işlər naziri Serqey Lavrov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında görüş keçirilib.***

Bu barədə "Unikal"a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.



Görüşdə tərəflər, bölgədə mövcud olan vəziyyət və üçtərəfli bəyanatların yerinə yetirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.

Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, o cümlədən dövlət sərhədinin delimitasiya prosesinin başlaması, bütün nəqliyyat və kommunikasiya xətlərinin açılışı, iki dövlət arasında sülh müqaviləsinin razılaşdırılması məsələləri üzrə fikir mübadiləsi aparılıb.

Tərəflər bölgədə sülh və təhlükəsizliyin təmin olunması naminə əldə edilmiş razılaşmaların icrasının vacibliyi vurğulanıb.

# Ədalət Vəliyev partiya sədri ilə görüşdü

***Mayın 12-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ölkəmizdə aparılan iqtidar-müxalifət dialoqu çərçivəsində Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayevlə görüşüb.***

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, görüş zamanı şöbə müdiri Ədalət Vəliyev vurğulayıb ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan dialoq mühiti siyasi sabitliyin əsası olmaqla yanaşı, dayanıqlı inkişafı təmin edən əsas amillərdən biridir.

Vətən müharibəsi dövründə ölkədə təmin edilən siyasi və milli həmrəyliyin dövlətin təməl prinsiplərinin möhkəmlənməsinə xidmət etdiyini vurğulayan Ədalət Vəliyev gələcəkdə də bu istiqamətdə aparılan iqtidar-müxalifət dialoqunun davam edəcəyini söyləyib. Yeni siyasi konfiqurasiyanın inkişafı üçün bütün partiyalarla konstruktiv münasibətlərin qurulmasının çox vacib olduğu qeyd edilib. Şöbə müdiri işğaldan azad olunmuş Ağdam və Şuşa şəhərlərinə partiya sədrlərinin birgə səfərləri barədə söz açarkən bildirib ki, belə səfərlər gələcəkdə də təşkil olunacaq.

Görüş zamanı Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev ölkəmizdə aparılan iqtidar-müxalifət dialoqunu yüksək qiymətləndirib. Azərbaycanda bütün siyasi qüvvələrin ümummilli məsələlərdə və dövlətçiliyin möhkəmlənməsində vahid güc formasında olmasının vacibliyi qeyd edilib. Bu halın həm də sağlam münasibətlərin bərqərar olmasına və siyasi mədəniyyətin yüksəlməsinə zəmin yaratdığı bildirilib. Dövlətin dialoqla bağlı bütün təşəbbüslərini dəstəklədiyini qeyd edən Elşad Musayev həmrəylik və sabitlik kimi amilləri hər bir ölkənin strateji resursu olaraq dəyərləndirib. Siyasi dialoq təcrübəsinin şaxələnməsinin dayanıqlı ənənələrin formalaşmasında əvəzolunmaz əhəmiyyətə malik olacağını vurğulayan partiya sədri bildirib ki, bu cür təcrübə mütləq şəkildə yeni uğurlu nümunələrlə zəng-



inləşdirilməlidir. Əldə olunmuş Qələbə və ölkənin müxtəlif beynəlxalq təşəbbüsləri sayəsində Azərbaycanın dünya siyasi arenasında çəkisinin əsaslı şəkildə artığı vurğulanıb.

Digər məsələlərlə yanaşı, görüş çərçivəsində İkinci Qarabağ müharibəsində qazanılmış Qələbədən sonra işğaldan azad edilmiş ərazilərin bərpası və Böyük Qayıdış ilə bağlı mövzular da geniş müzakirə olunub.

Sonda Elşad Musayev görüşə görə təşəkkürünü bildirib, rəhbərlik etdiyi partiyanın iqtidarla müxalifət arasında dialoqun və yeni siyasi konfiqurasiyanın inkişafına hər zaman dəstək verməyə hazır olduğunu qeyd edib.

ELAN

**Abbasov Mehman Əsəbala oğluna məxsus Mercedes Benz E280 markalı avtomobilin 99-DN-844 nömrəli dövlət qeydiyyat nişanı itdiyi üçün etibarsız sayılır.**

# Son sutkada nə qədər vaksin vurulub?

***Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 3799 vaksin vurulub.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 421, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 398, üç və daha çox doza üzrə vaksinasiya olunanların sayı 2679, pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı 301 nəfərdir.

Vurulan vaksinlərin ümumi sayı 13 678 248, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 5 342 858, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4 843 153, üç və daha çox doza üzrə vaksinasiya olunanların sayı 3 249



884, pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı isə 242 353 nəfər təşkil edir.

# Yoluxanların sayı açıqlandı - Ölən yoxdur



Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | | Bu gün 11.04.2022 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 792 253 | Yeni yoluxanların sayı | 16 |
| Ümumi sağalanların sayı | 782 351 | Yeni sağalanların sayı | 19 |
| Aktiv xəstə sayı | 199 | Bugünkü test sayı | 2 624 |
| Ümumi test sayı | 6 746 085 | Bugünkü ölüm sayı | 0 |
| Ümumi ölüm sayı | 9 703 | | |

Koronavirus İnformasiya Portalı koronavirusinfoaz KoronaVirus İnformasiya portalı KoronaVirus info

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 4 yeni yoluxma faktı qeydə alınıb, 11 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2500

# Şuşada V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılışı oldu

## Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalın açılışında iştirak ediblər



***Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılışı olub.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalın açılışında iştirak ediblər.

Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə elan edilən "Şuşa İli"ndə keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən təşkil olunub. Mayın 14-də başa çatacaq sayca beşinci festivala xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatılıblar.

Festivalın açılış konserti Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının ifasında "Vətən süitası" ilə başladı.

Sonra Əməkdar artistlər İlkin Əhmədov, Babək Niftəliyev və Səbinə Ərəblinin ifasında "Qarabağ şikəstəsi"nin sədaları Şuşa dağlarına yayıldı.

Vətən müharibəsində Azərbaycana əsl qardaşlıq dəstəyi göstərən Türkiyəni festivalda Türk Dünyası Musiqi və Xalq Rəqsləri Ansamblı təmsil edir. Ansamblın ifasında "Van yöresi" xalq rəqsi maraqla qarşılandı.

Azərbaycanın Xalq artisti Polad Bülbüloğlu "Çal oyna" xalq mahnısını, "Cəngi" Estrada Folklor Rəqs Ansamblı "Tənzərə", Əməkdar artist Şirzad Fətəliyev və nəfəs alətləri qrupu isə "Turacı" xalq rəqslərini ifa etdilər.

Malinin Şeyx Tidiane Sek etnocaz qrupu "Sanqa Bo" kompozisiyasını, "Pakistan rəngləri" qrupu "Bhanqra" rəqsini, Melitassi Gürcü Folklor Rəqs Ansamblı "Svanuri" rəqsini təqdim etdilər.

Azərbaycan Dövlət Rəqs Ansamblı avar xalq rəqsini, Tunisin "Yuma" dueti "Smek" kompozisiyasını, Özbəkistanın Baxor Dövlət Rəqs Ansamblı isə "Bayot" xalq rəqsini ifa etdilər.

Daha sonra Əməkdar mədəniyyət işçisi aşıq Samirə Əliyeva və aşıq Əli Tapdıqoğlu "Qarabağ qaytağısı" saz havasını, Xalq artisti Polad Bülbüloğlu və Bakı Xoreoqrafiya Akademiyasının "Xarıbülbül" rəqs ansamblı "Qarabağım" mahnısını səsləndirdilər.

Açılış konserti Əməkdar artist Aybəniz Haşımovanın və "Bülbüllər" qrupunun ifasında "Vətəndən pay olmayır" mahnısı ilə başa çatdı.

# Gömrük orqanlarının nümayəndələri arasında üçtərəfli görüş keçirilib

***Azərbaycandan tranzit keçməklə Gürcüstan, Türkiyə marşrutu ilə hərəkət edən yük nəqliyyat vasitələrinin gömrük-keçid məntəqələrində yaranan sıxlıqlarının aradan qaldırılması məqsədilə mayın 12-də gömrük orqanlarının nümayəndələri arasında üçtərəfli görüş keçirilib.***

"Unikal" xəbər verir ki, Türkiyə Respublikası ilə Gürcüstan arasındakı Sarp gömrük-keçid məntəqəsində keçirilən görüşdə Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov, Komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Azərbaycanın Batumi şəhərindəki Baş konsulu Pərviz İsmayılzadə, Türkiyə Respublikası Kaşqar Ticarət və Gömrük bölgə müdiri Rəcəp Bilgiç, Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidmətinin Gömrük de-



partamentinin rəhbəri Zurab Siçinava iştirak ediblər. Görüşdə hər üç ölkə arasında müxtəlif sahələrdə qurulan strateji əməkdaşlıq münasibətlərindən məmnunluqla bəhs edilib, beynəlxalq tranzitin inkişafı, regiondan keçən nəqliyyat dəhlizlərinin cəlbediciliyinin artırılması məqsədilə birgə fəaliyyətin gücləndirilməsinin vacibliyi vurğulanıb.

Son dövrdə hər 3 ölkənin ərazisindən tranzit qaydada keçən nəqliyyat vasitələrinin sayının kəskin şəkildə artdığı bildirilib və sərhədkeçmə proseslərinin sürətləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

O da qeyd olunub ki, Türkiyə Respublikasının Hopa rayonu yaxınlığında inşa olunan yeni terminal avtomobil axınının daha da sürətli hərəkətinə şərait yaradacaq. Eyni zamanda, Türkiyə-Gürcüstan sərhədindəki Türkgözü gömrük-keçid məntəqəsində aparılan yenidənqurma işlərinin qısa zaman kəsiyində yekunlaşdırılacağı, bununla da sərhədkeçmə proeslərinin sürətlənəcəyi və sıxlıqların aradan qaldırılacağı bildirilib.

Bundan başqa avtomobillərin sıxlığının aradan qaldırılması məqsədilə Sarp gömrük-keçid məntəqəsindən nəqliyyat vasitələrinin Gürcüstan-Türkiyə sərhədindəki Karçaxi-Aktaş müqabil gömrük-keçid məntəqələrinə yönləndirilməsinə qərar verilib.

# "Sülh müqaviləsi üzrə işə başlamağa hazırıq" - Ceyhun Bayramov



***"Azərbaycan sülh müqaviləsi üzərində işə başlamağa hazırdır. İnanırıq ki, bugünkü görüş təmasların davam etdirilməsinə müsbət təsir edəcək".***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Düşənbədə jurnalistlərə açıqlamasında deyib.

"Bu gün nəqliyyat-kommunikasiya xətlərinin açılması işində irəliləyiş yoxdur. Ümid edirik ki, bu gün keçirilən görüşdə müsbət nəticə əldə edərik",- XİN başçısı bildirib.

Qeyd edək ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bu saatlarda Rusiyanın xarici işlər naziri Sergey Lavrov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla Düşənbədə görüşür.

# Zakir Həsənov Türkiyə Təhlükəsizlik Şurasının Baş katibi ilə görüşdü

***Mayın 12-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi cənab Seyfullah Hacımüftüoğlunun rəh-***



***bərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Qonaqları salamlayan müdafiə naziri dövlət başçılarının qardaşlıq və dostluq münasibətlərinin hər iki ölkə arasında əməkdaşlığa böyük töhfə verdiyini xüsusi vurğulayıb.

General-polkovnik Z.Həsənov ölkələrimiz arasında digər istiqamətlərdə olduğu kimi hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində də əlaqələrin yüksək səviyyədə olmasından məmnunluğunu bildirib. Müdafiə naziri bu münasibətlərin regionda sülhün, təhlükəsizliyin və əmin-amanlığın möhkəmlənməsinə xidmət etdiyini deyib.

Səmimi qəbula görə təşəkkürünü bildirən cənab S.Hacımüftüoğlu qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Görüşdə Azərbaycan-Türkiyə əməkdaşlığının inkişaf perspektivləri, habelə maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparılıb.

# "Moskva Ermənistan-Azərbaycan əlaqələrinin normallaşmasında maraqlıdır" - Lavrov

***"Rusiya Cənubi Qafqazın sülh, davamlı inkişaf və firavanlıq zonasına çevrilməsində maraqlıdır".***

"Unikal" xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov Düşənbədə Azərbaycan və Ermənistan XİN başçıları ilə keçirilən üçtərəfli görüşdə bildirib.

"Ümid edirəm ki, bugünkü görüş liderlərimizin müəyyən etdiyi yolla irəliləməyə imkan verəcək", - Rusiya XİN rəhbəri qeyd edib.

Sergey Lavrov vurğulayıb ki, Moskva tərəflər arasında etimadın artırılmasında və Ermənistan-Azərbaycan əlaqələrinin tam normallaşması üçün şərait yaradılmasında maraqlıdır.

# “Bəzi nazirlər deputatları saymırlar”

## Qüdrət Həsənquliyev: “Parlamentli respublikaya keçsək, parlamentin nüfuzu yüksələcək”

***Məlum olduğu kimi, Prezident İlham Əliyev “Cənubi Qafqaz: inkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransda çıxışı zamanı icra hakimiyyətlərinin ləğvinin anonsunu verdi. Belə ki, bu istiqamətdəki islahatlar zamanı icra hakimiyyətlərinin Prezidentin xüsusi nümayəndəsi ilə əvəzlənəcəyi gözlənilir.***

“Unikal”a müsahibə verən BAXCP sədri, millət vəkili Qüdrət Həsənquliyevlə söhbətə də bu mövzuda başladıq.

***- Qüdrət bəy, idarəetmə sistemi ilə bağlı islahatların aparılacağı gözlənilir. Sizcə, yeni idarəetmə nələri dəyişəcək?***

- Prezident bunun anonsunu verib. Amma heç kim dəqiq söyləyə bilməz ki, dövlət başçısı nələri nəzərdə tutur. Bunu zaman göstərəcək. Sözügedən məsələ ilə bağlı fikrim ondan ibarətdir ki, Azərbaycanda dövlət idarəetməsindəki həddsiz mərkəzləşmə özünü doğrultmur. İdarəetmədəki bəzi səlahiyyətlər yerlərə ötürülməlidir. İcra hakimiyyətlərinin sayı çoxdur. İnzibati ərazi bölgüsünə görə 80-dən artıq rayon var, bu həddindən artıq çoxdur. Hazırda ölkəmizdə 14 iqtisadi rayon var. Həmin iqtisadi rayonların tərkibinə bir daha baxmaqla onları inzibati ərazi vahidlərinə çevirmək olar. Həmin inzibati ərazi vahidlərinin başçılarının yerli sakinlər tərəfindən seçilməsini müəyyənləşdirə bilərik. ”Yerli idarəetmə haqqında” qanun qəbul olunmalıdır. Regional rəhbərlərin statusu dəqiq müəyyənləşməlidir ki, onlar hansı səlahiyyətlərə malikdirlər. Həmin şəxsləri yerli sakinlər seçərsə, onlar qanunla idarəetmənin tərkib elementi kimi həm cənab Prezident, həm də yerli sakinlər qarşısında məsuliyyət daşıyacaqlar. Hər bir halda islahatları müsbət qiymətləndirirəm. Dövlət başçısı bəyan etdi ki, indiki idarəetmə özünü doğrultmur. Ona görə də mütləq islahatlar aparılmalıdır.

***- Hazırda bələdiyyələrin fəaliyyətini qənaətbəxş hesab edirsizmi?***

-Bizdə demək olar ki, bələdiyyələrin bütün səlahiyyətləri əllərindən alınıb. Onların ictimaiyyət üçün nələrsə etməsinə geniş imkanları yoxdur. Hər şeyi mərkəzi icra hakimiyyəti orqanları öz əlinə alıb. Adi reklamı, o cümlədən vergilərin əksəriyyətini bələdiyyələrdən alıblar. Bir çox ölkələrdə bələdiyyələrin məktəbləri, bağçaları, xəstəxanaları, ictimai nəqliyyatı və s. var. Bizdə isə sərnişindaşımaya da dövlət əl qoyub. Bakı Nəqliyyat Agentliyinin vasitəsilə sərnişindaşıma ilə məşğul olan sahibkarlar sıxışdırılıb çıxarıldı. Əvvəllər də təklif etmişik ki, bələdiyyələrə yerli dövlət hakimiyyəti orqanları statusu verilsin. Bələdiyyələr yerli özünüidarə orqanı deyil, yerli dövlət hakimiyyət orqanı statusu alsın.

***- Digər hansı sahədə struktur islahatlarına ehtiyac var?***

- Biz ölkəmizin gələcəyini parlamentli respublika modelində görürük. Dövlətdə də əsas icra hakimiyyətinə Baş nazir rəhbərlik etsin. Prezident dövlətin təmsilçisi kimi parlamentli respublikalarda olan səlahiyyətlərdən artıq səlahiyyətə malik olmasın. Ölkəmizin gələcəyini bu cür görürük. Biz parlamentli respublikaya keçsək, Qərb standartlarına cavab verən, demokratik cəmiyyət qurmaq bizə daha asan olar. O baxımdan düşünürəm ki, Azərbaycanın gələcəyi parlamentli respublikadır.

***- Deputat həmkarlarınız parlamentdə çıxışı zamanı bildirir ki, seçicilərin qaldırdığı hansısa məsələ ilə bağlı nazirlərlə əlaqə saxlamalı olurlar. Bəzi nazirlər isə onların telefonlarına cavab vermir...***

- Parlamentdə bu məsələ çox qaldırıldı. Bundan sonra deputatlara mərkəzi icra hakimiyyəti orqanlarının bəzilərinin aparat rəhbərlərinin, müavinlərinin nömrələrini veriblər. Siyahı tərtib olunub ki, bu şəxslərə zəng etsəniz, onlar mütləq telefonlara cavab verəcəklər. Bu o demək deyil ki, deputat nazirlərə, icra başçılarına zəng edə bilməz. İcra başçılarının müavinlərinin nömrələrini veriblər ki, onlarla əlaqə saxlanılsın. Bunun özünü də yersiz hesab etdim. İcra başçısının nə işi var ki, öz rayonunun deputatı ilə telefonla danışmağa vaxt tapmasın. O qədər gərgin iş görür? Səhərdən axşama qədər olan müddətdə telefonla öz rayonunu təmsil edən deputatla telefonla danışa bilmir ki, müavinin nömrəsini verirlər. Bu da islahatların aparılmasını zəruri edir. İcra hakimiyyətinin parlamentdən hansısa asılılığı olsa, deputatların telefonlarına cavab da verərlər, onların qaldırdığı məsələlərə diqqətlə yanaşarlar. İcra hakimiyyətləri parlament qarşısında məsul deyillər. Parlamentli respublikaya keçsək, parlamentin nüfuzu yüksələcək. Xalqın təmsilçilərinin birbaşa hökumətə təsir imkanları artacaq. Məsələn, Nazirlər Kabineti ildə bir dəfə parlamentdə hesabat verir. Birdən parlament həmin hesabatı qeyri-qənaətbəxş saydı. Bu, hansısa hüquqi nəticə doğurmayacaq. Parlamentin rolu o qədər kiçildilib ki, hökumət həddindən artıq özünü sərbəst hiss edir. Bu isə hökumət üzərində parlament nəzarətini aşağı endirir. Hər il büdcə müzakirələrində məsələ qaldırırıq ki, ”Büdcə sistemi haqqında” qanuna görə investisiya layihələrinin siyahısı parlamentə təqdim olunmalıdır. Deputatlar bilməlidir ki, ayrılan pulun bölgüsünə səs verəndə həmin vəsait hara xərclənəcək? Bunu vermirlər. Tələb edirik, əhəmiyyət verən yoxdur. İdarəetmədə islahatlar həm də ona gətirib çıxarmalıdır ki, parlamentin rolu artsın, məhkəmə hakimiyyəti daha müstəqil, güclü olsun. İdarəetmə təkmilləşdirilməsə, korrupsiya ilə mübarizədə daha ciddi uğurlara imza atmaq mümkün olmayacaq.



***- Qiymət artımları ən çox danışılan məsələlərdən biridir. Bunu tənzimləmək üçün hansı işlər görülməlidir?***

-Bəzi deputat həmkarlarımız deyirlər ki, süni qiymət artımına qarşı mübarizə aparılmalıdır. Bazar iqtisadiyyatında süni qiymət artımı deyilən bir şey ola bilməz. Burada qiymət tələblə təklif arasında müəyyənləşir. Əgər bir şeyə tələb yüksəkdirsə, onun qiyməti artacaq. Bazar iqtisadiyyatı olan ölkələrdə inhisarçılığa qarşı mübarizə var. Ayrı-ayrı sahibkarlar aralarında danışıb qiyməti qaldırırsa, bu, cinayət əməli sayılır. Buna görə onlara qarşı ciddi cəzalar nəzərdə tutulur. Süni qiymət artmı ola bilməz. Əgər tələbat varsa, satdığım məhsulun qiyməti qalxacaq. Dövlət heç kimə deyə bilməz ki, sən istehsal etdiyi məhsulu bu qiymətə satmalısan. İqtisadiyyat naziri bildirir ki, iqtisadiyyatın əsas sahələri dövlətin nəzarətindədir. Sual olunur niyə? Biz bazar iqtisadiyyatına keçmişiksə, dövlət nə üçün sahibkarlıq fəaliyyəti ilə məşğul olmalıdır? Nə üçün dövlətin nəzarətində olan sahələr özəlləşdirilmir, yaxud uzunmüddətli təcrübəli xarici şirkətlərə idarəetməyə verilmir? Biz görürük ki, dövlətin nəzarətində olan müəssisələri ayrı-ayrı məmurlar öz şəxsi əmlakları kimi istifadə edirlər, xərcləri şişirdirlər, kreditlər götürürlər və sonra həmin kreditləri qaytarmırlar. Onlar da camaatın büdcəyə verdiyi pulun hesabına qaytarılır. Bəzi hallarda deyirlər ki, bu strateji sahədir, büdcədən ora pul ayırırlar. Bizdə dövlət hakimiyyətində təmsil olunan şəxslər imtiyazlardan imtina etməlidirlər. Bundan imtina etməyincə, islahatları dərinləşdirə bilməyəcəyik. Büdcə demək olar ki, neft satışının hesabına formalaşır. Bu sahədə islahatlar ilk növbədə dövlət əmlakının özəlləşdirilməsindən başlanılmalıdır. Ona görə ki, iqtisadiyyatın əsas sahələri dövlətin nəzarətindədir və onlar da rentabelli deyillər. Bunlarla yanaşı, qanunun aliliyinin təmin olunması, məhkəmə-hüquq islahatları da vacib şərtdir. İlk növbədə dövlət inhisarçılığına son qoyulmalıdır.

***- Fakt odur ki, bəzi məmurlar dolayısı yol ilə olsa da, bizneslə məşğul olurlar. Bu gün məmurun maaşı nə qədər olmalıdır ki, bu işlərdən uzaqlaşsın?***

-Bir dəfə bu məsələni qaldırdım, az qaldılar məni topa tutsunlar. Hər zaman bildirmişəm ki, pensiya da, digər maaşlar da artırılmalıdır. İlk növbədə dövlət idarəetməsində çalışan şəxslərin əmək haqqları artırılmalıdır ki, onlar normal, ləyaqətli həyatlarını təmin etmək üçün sadə vətəndaşları incitməsinlər. Sadə bir həqiqətdir ki, buna normal maaş verməsən, o zaman sənin həyatını zəhər edəcək. Gedib bir arayışı belə pulsuz ala bilməyəcəksən. Məmurlara, deputatlara Avropa standartlarına uyğun maaş vermək lazımdır. Sonra korrupsiyaya qarşı effektli mübarizədən söhbət gedə bilər. Onların maddi təminatını təmin etmədən korrupsiyaya qarşı mübarizədən söhbət gedə bilməz. Ona görə nəzarətedici funksiyaları yerinə yetirən qurumlarla dərhal cinayət əlaqəsinə girəcəklər və oğurladıqlarının bir hissəsini verəcəklər onlara, bununla da onların fəaliyyətinə göz yumulacaq. Elə mexanizmlər yaradılmalıdır ki, həmin şəxs istəsə belə oğurlaya bilməsin. Əgər tamahı güc gəlib oğurluq edəcəksə, qısa müddətdə ifşa olunacaq. Onun üçün mexanizmlər hazırlanmalıdır. Sonu ona gəlir ki, köklü şəkildə islahat olmalıdır.

***-Son illər yüksək vəzifəyə təyinat alan şəxslər arasında gənclər üstünlük təşkil edir. Gənc kadrlar onlara göstərilən etimadı doğruldurmu?***

- Onların içərisində kifayət qədər mədəni və öz sahəsini yaxşı bilən kadrlar var. Hesab edirəm ki, SOCAR-ın Prezidenti vəzifəsini icra edən Rövşən Nəcəf kifayət qədər savadlı, mədəni və hazırlıqlı adamdır. Bura yeni səhiyyə naziri Teymur Musayevi də əlavə edərdim. Başqa adlar da çəkmək olar. Əsasən son təyinatları dedim. Kadrlar çox şeyi həll edir, amma hər şeyi həll etmir. İdarəetmə təkmilləşdirilməsə, heç nə dəyişməyəcək. Bir kadr uğurlu olacaq, vəziyyət əvvəlkindən nisbətən yaxşı olacaq. Amma köklü dəyişikliklər baş verməyəcək. İnsanlar yaşlaşır, gənc nəsil yaşlıları əvəz edir. Bu da təbii prosesdir. Tam o siyasət deyil ki, hakimiyyət gəncləşdirilsin. Ona görə ki, dövlət idarəetməsində təcrübəli insanlara hər zaman ehtiyac var. O baxımdan hökumətin tərkibində həm gənclər, həm də yaşlı insanlar olmalıdır. Bir balans yaratmalıdırlar. Tam gənclərdən ibarət hökumət ola bilməz. O hökumət inanmıram ki, ciddi uğur qazana bilər. Beynəlxalq təcrübə də bunu göstərir.

***- Parlamentdə də gəncləşmə prosesi gedib...***

-Parlamentdə də özünü doğruldan gənclər var. Adlar çəkmək istəmirəm. Gənclər o zaman özünü tam doğruldacaq ki, doğurdan da böyük rəqabətdən, siyasi partiyalardakı proseslərdən keçib gəlsinlər. Siyasi debatlarda çıxış etsinlər. Parlament siyasət yeridir. Bir çox hallarda kimsə-kimsə təminat verir, biri digərini təqdim edir. Bəzən olur ki, bu baxımdan kadrlar özünü doğrulda bilmir. Siyasi vəzifə tutan şəxslər, siyasi proseslərin içindən keçib gəlməlidir.

Milli Məclisin komandası var idi, futbol oynayırdıq. Deputat həmkarlarımızdan biri həmin şəxsi qapının arxasına qoyurdu ki, gedən topları gətirsin. Yəni, vaxtilə futbol zamanı “topdaşıyan” adam indi nazir olub. Bəzən deputatları da saymırlar. Dediyim islahatlar aparılsa, belə təsadüfi adamların orada yüksək vəzifələrə təyin olunması mümkün olmayacaq.

***Anar Kəlbiyev***

# Etibar Pirverdiyevin büdcəyə 3 milyard manatlıq zərbəsi...

## Sabiq "işıq şefi"nin vəzifədə olarkən yol verdiyi korrupsiya əməliyyatları barədə ilginc detallar ortaya çıxır

***Hesablamalar "Azərenerji" ASC-nin son illərdə zərərinin kəskin şəkildə azaldığını, yığımları artırdığını və Etibar Pirverdiyevin dövründəki kəskin mənfi göstəricilərdən uzaqlaşdığını göstərir. Məsələn, fevralda məlum oldu ki, bu dövlət şirkəti 2020-ci ili 206,924 milyon manat zərərlə başa vurub. Halbuki həmin rəqəm 2019-cu ilə nisbətən 9,6% azdır.***

Xatırladaq ki, "Azərenerji" 1997-ci ildə yaradılıb. Onun nizamnamə kapitalı 1 760,495 milyon manatdır. 100% dövlətə məxsus qurum ölkənin əsas enerji istehsalçısı və ixracatçısıdır.

Bununla belə o da faktdır ki, hesabat dövründə (yəni 2020-ci ildə) adıçəkilən səhmdar cəmiyyətin öhdəlikləri 1,4% artaraq 2 580,589 milyon manata çatıb, bir sözlə 3 milyard manata yaxınlaşıb.



Bu isə Pirverdiyevin yarıtmaz idarəçiliyinin məntiqi yekunudur. Xatırladaq ki, o, "Azərenerji"yə 2001 - 2018-ci illərdə rəhbərlik edib. Onun dövründə elektrik enerjisi sektoruna dövlət külli miqdarda investisiya ayırıb. Dövlət rəhbəri Azərbaycanın enerji sistemindəki vəziyyətlə əlaqədar 2018-ci ilin iyulunda keçirilən müşavirədə də bunu xüsusilə qeyd eləmişdi.

Lakin Pirverdiyevin vəzifədə olduğu illər çoxsaylı qəzalarla keçdi, ölkə dəfələrlə elektrik enerjisiz qaldı. Hər dəfə də Pirverdiyev bu qəzalara müxtəlif bəhanələr gətirməklə "sudan quru çıxmağa" çalışdı, lakin vəziyyət o yerə çatdı ki, sabiq "işıq şefinin" həmin bəhanələri axırda heç bir işə yaramadı və o, vəzifəsindən uzaqlaşdırıldı.

Bunda təəccüblü heç nə yox idi: Pirverdiyev zamanında "Azərenerji"dəki acınacaqlı mənzərənin ortaya çıxmasına səbəb olmuşdu. Məsələn, 2017-ci ildə bu qurum enerji satışından 1 milyard manatdan artıq gəlir əldə eləmişdi. Bu o demək idi ki, vətəndaşlar və eləcə də iş adamları sözügedən quruma il ərzində böyük məbləğdə ödəniş ediblər. Daha da konkretləşdirsək, qurumun enerji satışından əldə etdiyi gəlirinin təkcə 2017-ci ildə 25.2 faiz artmasına baxmayaraq, "Azərenerji"nin zərəri 602,873 milyon manat olmuşdu. Halbuki, 2016-ci ildə adıçəkilən cəmiyyətin zərəri cəmi 108,928 milyon manat idi.

Maraqlıdır ki, 2016-cı ildə "Azərenerji"nin elektrik enerjisi satışından əldə etdiyi gəlir 807 milyon manat olub. Yəni, 2017-ci ildə "Azərenerji"nin elektrik enerjisi satışından əldə etdiyi gəlirinin əvvəlki illərə nisbətən 200 milyon manata yaxın artmasına baxmayaraq, qurumun zərəri ötən il 6 dəfə çoxalmışdı!

Bu, açıq-aşkar şəkildə korrupsiya demək deyildisə, bəs nə idi?!

Daha düşündürücü məqam odur ki, Pirverdiyevin zamanında "Azərenerji" ASC eyni zamanda ən çox xarici borcu olan səhmdar cəmiyyətlərdən birinə çevrilmişdi, onun 1 milyard 951 milyon manat kredit və borc vəsaitləri üzrə öhdəliyi yaranmışdı. Bununla yanaşı, ticarət və digər kredit borcları üzrə öhdəliyi də 470 milyon manatdan çox idi. Bütövlükdə isə cəmi kapitalı 1 milyard manatdan bir az artıq olan "Azərenerji"nin yığılmış zərəri 2 milyard 123 milyon manat təşkil edirdi.

Bir sözlə, şəxsi biznesi günbəgün çiçəklənən, genişlənən Pirverdiyev rəhbəri olduğu qurumu borc, zərər bataqlığına sürükləmişdi.

Halbuki, Etibar müəllimin dövründə "Azərenerji", yuxarıda da vurğuladığımız kimi, dövlətdən ən çox maliyyə dəstəyi alan şirkətlərdən idi. Məsələn, 2018-ci ilin dövlət büdcəsinə dəyişikliklər edilərkən "Səngəçal" modul tipli elektrik stansiyasının yaxınlığındakı ərazidə tikintisi nəzərdə tutulan 385 meqavatlıq istilik elektrik stansiyası üçün avadanlıqların satınalınmasının həyata keçirilməsi və bununla bağlı texniki dəstəyin göstərilməsi ilə əlaqədar imzalanmış müqavilələr üzrə Finlandiyanın "Wartsila" şirkəti qarşısında yaranmış öhdəliyə görə qalıq borcun ödənilməsi üçün "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması üçün 81.4 milyon manat vəsait ayrılmışdı!

Yaxud, Dövlət Neft Şirkəti tərəfindən idxal olunan təbii qazın "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə müqavilə dəyərindən aşağı qiymətə satışına görə yaranmış zərərin örtülməsi üçün dövlət büdcəsindən 300 milyon manat subsidiya olmaqla, vəsait ayrılmışdı.

Nümunələrin sayını artırmaq olar. Lakin göstərdiyimiz iki nümunədən də hər şey aydındır. Gəl gör ki, bunların müqabilində Pirverdiyev "Azərenerji"ni yalnız zərərlə işləyən, davamlı şəkildə borclanan şirkətə çevirmişdi. Nonsens orasındadır ki, sözügedən ASC-nin zərərləri, borcları artdıqca, əvvəl də vurğuladığımız kimi, Etibar müəllimin ailə biznesi böyüyür, qolbudaq atırdı.

Beləliklə, illərdir cavabını gözləyən bir sual var: "Azərenerji"ni 2 milyard manatdan çox ziyana salan, yarıtmaz idarəçiliyi ilə sonrakı iki ildə bu ziyanın 3 milyard manata yaxınlaşmasına səbəb olan Pirverdiyevdən bu fantastik zərərin hesabı soruşulacaqmı? Bəyəm ondan xəbər almaq olmazmı ki, dövlətin ciddi dəstəyinə, fiziki və hüquqi şəxslərin artan ödəmələrinə baxmayaraq o, bu strateji dövlət şirkətini borc və zərər bataqlığına sürükləməyi necə bacarıb?

Və necə olub ki, həmin zərərlərə, borclara baxmayaraq, öz şəxsi biznesi daim çiçəklənib, böyüyüb? Bu nonsensin ağlabatan bir izahı var, ya yox?!

***Toğrul Əliyev***



# Spiker Səudiyyə Ərəbistanın Baş prokuroru ilə görüşüb

***Mayın 12-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacibin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı parlamentdə salamlamaqdan məmnunluğunu ifadə edən spiker Sahibə Qafarova bildirib ki, Azərbaycan dost və qardaş Səudiyyə Ərəbistanı Krallığı ilə müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə xüsusi əhəmiyyət verir. İki ölkənin xalqları arasında tarixən mövcud olan oxşar dini və mədəni dəyərlər ölkələrimiz arasındakı münasibətlərin möhkəm təməlini təşkil edir. Sahibə Qafarova qonağın bu səfərinin yüksək səviyyəli münasibətlərin nümunəsi olmaqla yanaşı, Azərbaycanın və Səudiyyə Ərəbistanının prokurorluq orqanları arasındakı əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə inamını bildirib.

Söhbət zamanı Milli Məclisin sədri Azərbaycanda Parlamentlə Baş Prokurorluq arasında qarşılıqlı faydalı əməkdaşlıq barədə də fikirlərini bölüşüb.

Parlamentlərarası münasibətlərimizin yüksək səviyyədə olmasını vurğulayan spiker qeyd edib ki, Azərbaycanla Səudiyyə Ərəbistanı arasında ənənəvi dostluq əlaqələrinin genişləndirilməsində ölkələrin ali qanunverici orqanları müsbət rol oynamaqdadır. Bu baxımdan hər iki ölkə parlamentində fəaliyyət göstərən dostluq qruplarının işi təqdirəlayiqdir.

Görüşdə Sahibə Qafarova qonağa Azərbaycanın öz torpaqlarını Ermənistanın işğalından azad etməsindən sonra bölgədə yaranmış yeni reallıq barədə də məlumat verib. Bildirib ki, səfər çərçivəsində Səudiyyə Ərəbistanı nümayəndə heyətinin üzvləri işğaldan azad olunmuş ərazilərimizdə olub, hər şeyi öz gözləri ilə görüblər. İndi həmin ərazilərdə məscidlərimiz yenidən tikilir, sürətli bərpa və quruculuq işləri aparılır.

Söhbət zamanı qonaq bildirib ki, Səudiyyə Ərəbistanının iqtisadi münasibətləri genişləndirmək istədiyi ölkələrdən biri də Azərbaycandır. O, Expo sərgisinin 2030-cu ildə Səudiyyə Ərəbistanında keçirilməsinə verdiyi dəstəyə görə Azərbaycana təşəkkür edib.

Qonaq Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər zamanı ölkə başçısının rəhbərliyi altında görülən işləri və qazanılan nailiyyətləri təqdir edib.

Görüşdə Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, komitə sədrləri Ziyafət Əsgərov, Zahid Oruc, Səudiyyə Ərəbistanı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Fatma Yıldırım, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Respublika Baş Prokurorluğunun nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

# Təhsilin İnkişafı Fonduna sədr təyin olundu

***Təhsil nazirinin müşaviri Elnur Nəsibov yeni vəzifəyə təyinat alıb.***

"Unikal" xəbər verir ki, nazir Emin Əmrullayevin müvafiq əmrinə əsasən, E.Nəsibov Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri təyin edilib.

Qeyd edək ki, Elnur Nəsibov 2020-ci ildə təhsil nazirinin müşaviri təyin olunub. Ona qədər isə Peşə Təhsili üzrə Dövlət Agentliyində direktor müavini vəzifəsində çalışıb.

# DTX-dən əməliyyat

## "Cundul Şam"a qoşulan azərbaycanlı həbs edildi



***Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən beynəlxalq terrorçuluqla mübarizə istiqamətində kompleks əməliyyat-istintaq tədbirləri davam etdirilir.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsinin məlumat yayıb.

Aparılmış araşdırmalar nəticəsində Azərbaycan Respublikasının vətəndaşı, 1989-cu il təvəllüdlü Şıxıyev Bəxtiyar Səttərxan oğlunun ölkə hüdudlarından kənarda terror aktlarının törədilməsi ilə müşayiət olunan, dini düşmənçilik, dini radikalizm və dini fanatizm zəminində aparılan silahlı münaqişələrdə iştirak etmək məqsədilə müxtəlif vaxtlarda Suriya Ərəb Respublikasının Rifil-muhandis qəsəbəsində xüsusi hazırlıq düşərgəsində təlimlər keçməsinə, müxtəlif odlu silahlardan istifadə qaydalarına yiyələnərək "Cundul Şam" adlı qanunsuz silahlı dəstənin fəaliyyətində iştirakına əsaslı şübhələr müəyyən edilmişdir.

Dövlət Təhlükəsizliyi Xidmətində başlanılmış cinayət işi üzrə Bəxtiyar Şıxıyev şübhəli şəxs qismində saxlanılaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 283-1.3-cü (Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmək məqsədilə sabit qruplar yaratma, həmin qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunmuş, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə araşdırmalar davam etdirilir.

# İsgəndər Həmidovun övladları arasında narazılıq



***Azərbaycanın sabiq daxili işlər naziri İsgəndər Həmidovun Səbail rayonunda evi hərraca çıxarılıb.***

Evin hərraca çıxarılmasına səbəb ata evinin Həmidovun övladları - Həmidov Nofəl və Məcidzadə Məcid arasında bölünə bilməməsi olub.

Belə ki, böyük qardaş Məcidzadə Məcid ata mülkündən öz qardaşı Nofələ pay verməyi üçün sonuncu tərəfindən məhkəməyə verilib.

İsgəndər Həmidovun kiçik oğlu mənzilin bölünməsi, bu mümkün olmadıqda payın əvəzinə kompensasiya ödənilməsi, daha sonra əmlakın açıq hərracdan satılması və payların münasib şəkildə bölüşdürülməsi ilə bağlı Bakı Şəhər Səbail rayon məhkəməsində iddia qaldırıb və iddia məhkəmə tərəfindən təmin edilib.

Həmçinin oxuyun: "Clear" hotelin sahibinə 2,3 milyon "atdılar"

Məhkəmə müəyyən edib ki, cavabdeh olan qardaş Məcid Məcidzadə həmin mənzildən özü istifadə edir, açarlar özündədir, Həmidov Nofələ həmin yaşayış sahəsi üzrə istifadə etməyə imkan vermir və çətinliklər yaradır. Həmçinin gələcəkdə payı üzərindən sərəncam vermək və sair hallarla bağlı çətinliklərin yaranacağı indidən bəllidir. Çünki, qardaşı ilə bağlı aralarında münasibətlər vərəsəliklə bağlı çox soyuqdur. Məcidzadə Məcid atasına məxsus olan, lakin atasının adından olmayan digər əmlakları, o cümlədən avtomobili (avtomobili sataraq dəyərini) müxtəlif üsullarla özgəninkiləşdirib. Bildirilir ki, Nofəl qardaşı Məcidlə razılıq əldə etməyə çalısa da, bu mümkün olmayıb. Nəticədə məhkəmə mənzilin hərrac yolu ilə satılmasına dair qərar verib.

Mərhum nazirin Bakı Şəhəri, Səbail rayonu, İstiqlaliyyət küçəsində 5 saylı binada yerləşən, 22 saylı mənzilinin (Yeni qaydalarla: AZ1001, Bakı şəhəri, Səbayil rayonu, BMT-nin 50 illiyi küçəsi, 7M9,m1) ilkin satış qiyməti 350 000 AZN olaraq dəyərləndirilir. Hərrac mayın 25-də keçiriləcək.

Qeyd edək ki, İ. Həmidov 1992-93-cü illərdə Azərbaycanın daxili işlər naziri olub və 2020-ci ildə 71 yaşında vəfat edib.

# Sabiq nazir müavininin oğlunun idarə etdiyi şirkətlər...

## Elvin İsmayılovun rəhbərlik etdiyi MMC-lər nə işlə məşğuldur?

***Azərbaycanın gənclər və idman nazirinin sabiq müavini İsmayıl İsmayılovun oğlu Elvin İsmayılov eyni vaxtda bir neçə şirkəti idarə edir. Düzdür, bu bilgi əslində yeni deyil və ötən ilin payızında, İsmayılov postunu itirdikdən sonra yayılmışdı.***

İndi isə "Unikal" qəzeti həmin şirkətlər barədə yeni və maraqlı məlumatlar əldə edib.

Qeyd edək ki, sabiq nazir müavininin oğlu əvvəllər "Qəbələ Atçılıq Klubu" MMC-yə rəhbərlik edib. O, həmçinin, hazırda Gilan Holdinqə daxil olan "Gilan İnşaat" MMC-nin qanuni təmsilçisidir.



Bundan başqa, E.İsmayılovun "Qəbələ Sport Store" MMC-yə də rəhbərlik etdiyi deyilir. Bu MMC idman ləvazimatlarının, o cümlədən, ov silahlarının satışı üzrə ixtisaslaşıb.

İsmayıl İsmayılovun oğlunun rəhbərlik etdiyi ən aparıcı şirkət isə "Core Construction" (keçmiş "Gilan Construction Group") sayılır. Bu MMC Avropa-Azərbaycan Məktəbini inşa edib. "Avropa Azərbaycan Məktəbi" Təhsil Kompleksi MMC 2011-ci ildə Francesco Banchini adlı əcnəbi vətəndaşın adına rəsmi qeydiyyatdan keçirilib.

"Core Construction", həmçinin, Bakıdakı City Tower binasının təmiri, AFB Bankın baş ofisinin, Ağdaş Biyan Zavodunun tikintisini həyata keçirib.

Şirkətin ən diqqətçəkici layihələrindən biri isə "Kəndsayağı"adlanır. Belə ki, İsmayıllı rayonunun Qurbanəfəndi kəndində 3,73 hektarlıq ərazini əhatə edən bu layihə çərçivəsində turizm obyektləri, restoran, şah hamamı, kinoteatr, betondan modul tipli evlər, yurd tipli çadırlar, müxtəlif əyləncəli məşğuliyyətlər və digər iaşə obyektlərinin inşası nəzərdə tutulmuşdu.

Bundan əlavə, layihəyə əsasən, şənbə və bazar günləri yerli əhalinin istehsal etdiyi kənd məhsullarının təqdimatının və satışının həyata keçirilməsi üçün yarmarkalar təşkil edilməli idi.

Lakin bu layihənin icrası və özünü doğruldub-doğrultmamasına dair hər hansı bir məlumat yoxdur.

Bəs sabiq nazir müavininin oğluna aid şirkət haqda başqa hansı bilgilər var? Araşdırmalarımız zamanı məlum oldu ki, "Core Construction" MMC yarandığı gündən bu günədək çox sayda müxtəlif istiqamətli tikinti, təmir, dizayn işləri həyata keçirib. "İlk öncə işlərin keyfiyyət dəyəri rəhbər tutulduğuna görə, şirkətimizin davamlı uğurları bizi tikinti bazarında dəyərli tərəfdaş olaraq tanıtmışdır. Azərbaycan Respublikasının qanunlarını və beynəlxalq normaları nəzərə alaraq istehlakçı tələblərinin ödənilməsi öhdəliyi yüksək keyfiyyətlə yerinə yetirilir. Həmçinin şirkətimiz ətraf mühitin qorunması, sağlamlıq və əməyin təhlükəsizliyinin təmin edilməsi, eləcə də şirkətin davamlı inkişafına yönəldilmiş proqramların hazırlanmasını həyata keçirir" - bu adıçəkilən şirkətin öz fəaliyyəti ilə bağlı rəsmi tanıtımıdır.

"Müəyyənləşdirilmiş proseslərin təhlili və onlara nəzarət üçün lazımi resursların təmin edilməsini, istehlakçıların tələblərinə uyğun olaraq işlərin yerinə yetirilməsini həyata keçiririk. İşə peşəkar əməkdaşların cəlb edilməsi, bədbəxt hadisələr və işçilərin peşə xəstəlikləri ilə əlaqədar risklərin hərtərəfli qiymətləndirilməsi və bunların minimuma endirilməsi naminə profilaktik tədbirlərin həyata keçirilməsi və digər istiqamətdə vəzifə öhdəliklərini daşıyırıq" - elə bu da MMC-nin özü ilə bağlı rəsmi tanıtımındandır.

Sabiq nazir müavininin oğlu, həmçinin, adıçəkilən şirkət vasitəsilə "Azərbaycanın və Qafqazın ən nəhəng sənaye mu?əssisələrindən biri" kimi təqdim edilən Mingəc?evir Sənaye Parkında da böyük məbləğdə işlər görüb. Belə ki, "Core Construction" adıçəkilə mu?əssisədə inzibati bina, yeməkxana və zavod daxili inzibati məntəqələrin dizayn və təmiri, nasosxanalar, su anbarları və yang?ınso?ndu?rmə məntəqələrinin tikintisini, həmc?inin ərazinin asfaltlanması, yas?ıllas?dırma abadlıq is?lərini həyata kec?irib.

Qafqazın ən iri tu?tu?n məmulatları zavodu sayılan "Baku International Tobacco"-da əsaslı daxili təmir və yenidənqurma is?ləri, mo?vcud dəzgah və cihazların bərpası, zavodun həyətyanı sahəsində lands?aft və asfalt is?ləri də məhz E.İsmayılovun rəhbərliyi altında həyata kec?irilib.

Lakin son aylarda sabiq nazir müavininin oğlu tərəfindən idarə edilən şirkətin hansısa iri layihə həyata keçirdiyinə dair heç bir məlumat yoxdur.

Xatırladaq ki, İsmayıl İsmayılov ötən ilin noyabrında postunu itirib. Bundan sonra isə o, mətbuata açıqlamasında vəzifəsindən azad olunması barədə sərəncamın özü üçün gözlənilməz olduğunu deyib və maraqlı fikirlər səsləndirib: "Buna baxmayaraq, mən ömrümün sonunadək Prezidentimizin quluyam. Ölkə başçısının yolunda hər şeyə hazıram. 15 il nazir müavini postunda oldum. Bundan böyük nə ola bilər? Əbədi heç nə yoxdur. Bu gün mən deyərdim ki, ölkədə bütün inkişaf onun sayəsində gedir. Son 300 ildə bizim torpaqlarımız alına-alına gedirdisə, bu gün onun sayəsində işğal olunan ərazilərimiz düşmən tapdağından azad olunub. Allah prezidentimizi qorusun!"

***Sənan Mirzə***

# Xəzər Aslanov üçün İsmayıl Vəliyev xatırlatması...

## Məmurlar şəhid ailələrinə və qazilərə münasibətdə hələ çox şey öyrənməlidirlər



***Yola salmaq üzrə olduğumuz həftə Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun qalmaqallı görüntüləri yayıldı. Görüntülərdən belə aydın olurdu ki, o, qəbuluna gələn şəhid atalarını qəbul etməyib.***

Şəhid ataları icra başçısından narazılıqlarını dilə gətirir, məmurun sakinlərlə, şəhid ailələri ilə heç vaxt maraqlanmadığını bildirirlər. Onların qarşısına idman geyimində çıxan Aslanovun isə kobud danışığı diqqət çəkir.

Bu görüntülər yayıldıqdan sonra "Unikal"a açıqlamasında deputat Razi Nurullayev deyib ki, şəhid ailələrinə qarşı qətiyyən hörmətsizlik etmək olmaz. "Onları qəbul etməmək məsələsi də yolverilməzdir" deyən deputat əlavə edib: "Təbii ki, bəzən şəhid ailələri gəlir, ağır danışır, bəzi hallarda həmin problemləri həll etmək olmur. Amma bu o demək deyil ki, şəhid ailəsi qəbul edilməməlidir. Ən azından onları dinləyib, həmin problemlərlə bağlı aidiyyatı qurumlar qarşısında məsələ qaldırmaq olar. Ümumiyyətlə, şəhid ailəsi niyə qəbul edilməsin ki? Lap gəlsin qışqır-bağır salsın, yenə də mən hesab edirəm ki, bu, şəhid ailəsinin qəbul edilməməsinə əsas verə bilməz.

Hər bir icra başçısı şəhid ailəsini mütləq şəkildə qəbul etməlidir. İcra başçıları tərəfindən bu məsələdə heç bir bəhanə gətirilə bilməz. Əgər Xızı rayonunda da bu hadisə baş veribsə və sosial şəbəkələrdə insanlar bu məsələni müzakirə edirlərsə, bəzən bu, icra başçıları üçün ölüm hökmünə bərabər olur. Hər bir halda baş verən hadisənin səbəbini də bilmək lazımdır".

Xızı Rayon İcra Hakimiyyətinin başçısı da yayılan görüntülərə münasibət bildirib. İcra Hakimiyyətindən "Unikal"a göndərilən məktubda qeyd olunub ki, Xəzər Aslanov videogörüntüdəki şəhid ailələrini qəbul edib: "Qaldırılan bir sıra məsələlər yerindəcə həllini tapıb. Belə ki, şəhid Alik İsayevin qardaşı Cahangir İsayev Xızı Rayon İcra Hakimiyyətində işlə təmin edilib. Məsələ ilə bağlı münasibət bildirən deputat Razi Nurullayevə məsləhət bilərdik ki, təmsil etdiyi dairə üzrə öz seçicilərinin problemləri ilə maraqlansın və onların etimadını qazansın. Bu kimi məsələlərdən xal qazanmaqla siyasətçi obrazı yaratmaq siyasi etika ilə ziddiyyət təşkil edir".

Əslində məlum videogörüntüləri izlədikdən sonra deməyə çox söz qalmır. Kadrlardan hər şey aydındır və Xızı Rayon İcra Hakimiyyətinin bunu bir kənara qoyub yüngül tənqidə belə kəskin dillə, "siyasi etika" vurğusu ilə cavab verməsi anlaşılmazdır.

Qeyd edək ki, Xəzər Aslanov 2020-ci ildə həbs olunan Neftçalanın sabiq icra başçısı İsmayıl Vəliyevin qohumudur. Belə ki, o, Vəliyevin qaynıdır. Onların hər ikisi vaxtilə gömrük orqanlarında çalışıblar.

Ən azı İ.Vəliyevin vəzifədə olarkən yol verdiyi səhvlərdən nəticə çıxarmaq, vətəndaşlarla, xüsusilə də şəhid ailələri və qazilərlə münasibətdə ölkə rəhbərliyinin qarşıya qoyduğu tələbləri əsas götürmək, haqlı narazılıq, ictimai qınaq doğuran davranışlardan uzaq durmaq lazımdır. Ən əsası isə belə davranışlara yol verdikdə səslənən tənqidləri anlayışla , dözümlə qarşılamaq vacibdir.

Fürsətdən istifadə edib ölkə rəhbərinin şəhid ailələrinə, qazilərə qayğı ilə bağlı müxtəlif vaxtlardakı çıxışlarından bəzi məqamları məmurlarımıza bir daha xatırlatmaqda fayda görürük. Ümid edirik, vəzifəli şəxslər ən azı bundan sonra həmin çıxışları öz fəaliyyətlərində prioritet kimi qəbul edəcəklər:

- "O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib. Onu da bildirməliyəm ki, Ermənistan ordusunda da itkilər olub və İkinci Qarabağ müharibəsində müxtəlif rəqəmlər səslənir. Bizdə olan məlumata görə, təqribən 6-7 min işğalçı məhv edilibdir. Onların birinin də ailəsinə Ermənistan dövləti heç bir yardım etməyib. Ümumiyyətlə, Ermənistanda bizdə olan proqram mövcud deyil. Müharibədə həlak olmuş insanların yaxınlarına nəinki ev, bir daxma da verilmir. Hər şey müqayisədə ölçülür. Bizim bu sahədəki siyasətimiz birmənalıdır. Bu siyasət mənəvi normalara əsaslanır və Vətən uğrunda canından keçmiş insanların yaxınları dövlət tərəfindən bundan sonra da qayğı ilə, diqqətlə əhatə olunacaqlar. Son illər müavinətlərin, pensiyaların məbləğinin artırılması göz qabağındadır. Azərbaycan dövləti bu siyasəti bundan sonra da davam etdirəcək" (fevral, 2021).

- "Heç kim həyatda əbədi qalmır, amma şəhid olmaq, bu, doğrudan da xalq qarşısında, tarix və gələcək nəsillər qarşısında böyük xidmətdir. Şəhid əbədi qalır, əməyi və qəhrəmanlığı əvəzolunmazdır.

Şəhidlər canını torpaqların azad olunması və ədalətin bərpa edilməsi, xalqımızın ləyaqətinin bərpa olunması naminə fəda edir. Çünki otuz il torpaqlarımız işğal altında qalıb və xalqımız mənəvi əzablar çəkib. Şəhidlərimizi irəliyə aparan məhz Vətən sevgisi olub, bu ədalətsizliklə barışmazlıq olub. Onlar xalqımızın ləyaqətini bərpa etdilər. Bu, qələbə qədər vacib məsələdir, gələcək nəsillərin yetişməsi və tərbiyəsi üçün əvəzolunmaz amildir. Çünki biz artıq ilyarımdır ki, müzəffər xalq kimi yaşayırıq" (may, 2022)...

***Murad İbrahimli***



# Azərbaycan və Qazaxıstan birgə hərbi təlimlər keçirə bilər

***Mayın 12-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikasının Müdafiə Nazirliyinin Baş Kəşfiyyat Departamentinin rəisi general-leytenant Serik İztleuovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Bu barədə "Unikal"a Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib.

Qonaqları salamlayan müdafiə naziri dövlətlərimiz arasında əlaqələrin möhkəm tarixi bazaya və mehriban qardaşlıq münasibətlərinə əsaslandığını bildirib.

General-polkovnik Z.Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Qələbədən sonra azad edilən ərazilərdə görülən işlərlə bağlı nümayəndə heyətinə ətraflı məlumat verib.

Müdafiə naziri, həmçinin Vətən müharibəsində əldə edilən döyüş təcrübəsi və Türkiyə Silahlı Qüvvələrinin modeli nəzərə alınmaqla Azərbaycan Ordusunda aparılan islahatlardan danışıb.

Qazaxıstan Respublikasının müdafiə nazirinin salamlarını çatdıran general-leytenant S.İztleuov hərbi əməkdaşlığın genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin vacibliyini qeyd edib.

Görüşdə hər iki ölkənin hərbi qulluqçularının peşəkarlıq səviyyələrinin yüksəlməsində birgə təlimlərin keçirilməsinin vacibliyi xüsusi vurğulanıb.

Sonda hərbi, hərbi təhsil və hərbi kəşfiyyat sahəsində əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Kərim Vəliyev qazaxıstanlı generalla görüşdü

***Mayın 12-də Azərbaycanın müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan Qazaxıstanın Müdafiə Nazirliyinin Baş Kəşfiyyat Departamentinin rəisi general-leytenant Serik İztleuovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Qonaqları salamlayan general-polkovnik K.Vəliyev iki dövlətin orduları arasında hərbi əməkdaşlığın möhkəmlənməsində bu cür görüşlərin və qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyini vurğulayıb. Azərbaycana səfərindən məmnunluğunu ifadə edən general-leytenant S.İztleuov hərbi əməkdaşlıq sahəsində təcrübə mübadiləsinin mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Görüşdə əməkdaşlığın inkişaf perspektivləri, eləcə də maraq doğuran digər məsələlər müzakirə edilib.

# İran səfiri Bakı və İrəvana çağırış etdi

***Ermənistan və Azərbaycan birgə layihələrin həyata keçirilməsini sürətləndirməlidir.***

Bunu İrəvanda keçirilən Ermənistan-İran biznes forumu zamanı İranın Ermənistandakı səfiri Abbas Bədəşxan Zohuri deyib. Onun sözlərinə görə, geosiyasi vəziyyət və regionda baş verən hadisələr İrana dost olan iki ölkəni son 30 ildə itirilmiş vaxtın əvəzini çıxmaq üçün nəzərdə tutulan bütün işlərin və proqramların icrasını sürətləndirməyə məcbur edir.

"Biz infrastrukturun inkişafına, o cümlədən Şimal-Cənub magistralının tikintisinə ciddi diqqət yetirməliyik. Təsəvvür edin ki, Hindistan-Qara dəniz dəhlizi və Avropa İttifaqının təmin edəcəyi ticarətin həcmi nə qədər olacaq", - səfir çıxışında vurğulayıb.

# Səhiyyə Nazirliyinin "vəzifəli şəxsi"nin işi məhkəmədə



***Bakı şəhər sakini Sədaqət Əzizovanın qabaqcadan əlbir olduğu şəxslərlə birlikdə bir neçə Cəbrayıl rayon sakininə qarşı dələduzluq etməsi faktı ilə bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işinin ibtidai istintaqı tamamlanıb.***

Cəbrayıl rayon prokurorluğundan Modern.az-a verilən məlumata görə, aparılmış istintaqla Sədaqət Əzizovanın özbaşına özünü Səhiyyə Nazirliyinin vəzifəli şəxsi kimi təqdim edərək qabaqcadan əlbir olduğu Aybəniz İbişova, Elçin Abışov və Vasif Abışov ilə birlikdə bir neçə Cəbrayıl rayon sakininin hazırda dayandırılmış sosial müavinətlərinin yenidən bərpa etdirəcəyinə dair yalan vəd verərək aldatma yolu ilə onların 2021-ci ilin müxtəlif vaxtlarında ümumilikdə 5851 manat məbləğində pul vəsaitini ələ keçirmələrinə əsaslı şübhələr müəyyən edilib.

Sədaqət Əzizova, Elçin Abışov və Aybəniz İbişovaya Cinayət Məcəlləsinin 178.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən dələduzluq), 178.2.2 (təkrar dələduzluq), 310 (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) və 32.4, 312.2-ci (rüşvət verməyə təhrik etmə), Vasif Abışova isə həmin məcəllənin 178.2.1, 310 və 32.4,312.2-ci maddələri ilə yekun ittiham elan edilib.

Hazırda cinayət işi baxılması üçün aidiyyəti üzrə Lənkəran Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# Azərbaycanda pensiya yaşı azaldılacaq? - Açıqlama

***65 yaşda pensiyaya çıxan insan pensiya kapitalının 12 ildə olan ayların sayına (144-ə) bölünərək aylıq pensiya müəyyən edilməsi orta hesabla insanların 77 il yaşamasını qəbul etmək deməkdir.***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı ekspert Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, 2002-ci ildə əmək qabiliyyətli əhali arasında 11 588 nəfər ölübsə, 2020-ci ildə 27 991 nəfər dünyasını dəyişib.

"Bu, pensiya almadan ölənlərin təxminən 150% artması deməkdir. Bunun bir neçə səbəbi olsa da əsas səbəb pensiya yaşının artırılmasıdır. Çünki, 2009-cu ilə qədər əmək qabiliyyətli əhali olaraq kişilər 15-61 yaş, qadınlar 15-56 yaş arası hesab olunurdu. Amma 2020-ci ildə bu yaş həddi kişilər üçün 15-64, qadınlar üçün 15-61,5 yaş hesab edilirdi. Pensiya yaşı artırıldıqca, pensiya almadan ölənləri sayı kəskin artır. Bu artım illər üzrə bərabər qalxmır, artan hər pensiya yaşına ölüm daha çox artır. Məsələn, pensiya yaşını 55-dən 56-ya qaldıranda əvvəlki illə müqayisədə təxminən 300 nəfər daha çox ölüm olursa, 65-yaşdan 66 yaşa qaldıranda ölüm sayı 300 yox, 1000 artır. Yəni, bioloji yaş artıqca ölüm daha çox artır. Bu təxminən həmin qədər insanın bu və ya digər formalı pensiya hüququndan istifadə edə bilmədən dünyasını dəyişməsi deməkdir".

Ekspert bildirib ki, pensiya yaşının azaldılması ilə bağlı son günlər Milli Məclisdə olan müzakirələr müsbət hal olsa da, reallaşdırılması gözlənilən deyil:

"Ona görə ki, 2027-ci ilə qədər pensiya yaşının artırılması qanunla təsdiqlənib. Belə ki, "Əmək pensiyaları haqqında" qanunun 7-ci maddəsində nəzərdə tutulmuş kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılıb 65-ə çatdırılması nəzərdə tutulub. Hazırda kişilərin pensiya yaşı 65 olub, qadınların pensiya yaşı isə 62 il 6 aydır. 1 iyul 2022 - 30 iyun 2023 tarixində isə qadınlar üzrə 63 il olacaq. Beləliklə, azalan hər pensiya yaşı əlavə xərc, artan hər pensiya yaşı isə qənaət deməkdir. Odur ki, yaxın vaxtlarda pensiya yaşının azalması ilə bağlı addımın atılacağı gözlənilən deyil".

# Ənvər Seyidəliyevin çin çıxmayan arzusu...

## Həbsdəki sabiq nazirin keçmiş icra başçısı olan dayısı hardadır?

***2019-cu ilin sentyabrında ölkə başçısının imzaladığı sərəncamla Ənvər Qasım oğlu Seyidəliyev Ağsu Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edildi.***

Bu həmin Ə.Seyidəliyev idi ki, həmin vaxt əmək və əhalinin sosial müdafiəsi naziri postunu tutan Səlim Müslümovun dayısı kimi də tanınırdı.

Postunu itirdikdən sonra yerli mediaya açıqlama verən eks-icra başçısı açıqlamasında "Bundan sonra məqsədim ancaq dövləti və dövlətçiliyi qorumaq, Prezidentin arxasınca getmək, onun tapşırıqlarını yüksək səviyyədə yerinə yetirmək olacaq. Mənim 70 yaşım var. İş olsa, işləyəcəm, olmasa da, eybi yox. Ancaq qəlbən cənab prezidentə dəstək nümayiş etdirəcəm" demişdi.



Lakin Ə.Seyidəliyevin yeni iş istəyi çox keçmədən biryolluq "arxiv"ə gömüldü. Belə ki, bundan bir müddət sonra, onun bacısı oğlu olan Müslümov öncə vəzifəsindən azad edildi, ardınca da cinayət məsuliyyətinə cəlb edildi. Onun əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsində işlədiyi müddətdə nazirliyin fəaliyyət istiqamətləri üzrə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsinin təşkil edilməsi, işəgötürənlərin əmək, məşğulluq və sosial müdafiə məsələləri ilə bağlı fəaliyyətlərinə dövlət nəzarətinin həyata keçirilməsi və digər səlahiyyətlərin yerinə yetirilməsi zamanı çoxsaylı sui-istifadə hallarına yol verməsinə dair faktlar ortaya çıxdı.

Toplanılmış materiallar əsasında başlanılmış cinayət işi üzrə Səlim Müslümovun xidməti vəzifələrinin icrası ilə əlaqədar özü üçün qanunsuz üstünlüklər əldə etmək məqsədilə qulluq səlahiyyətlərindən tamah niyyəti ilə qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan zərər vurmasına, habelə onun tərəfindən tabeçiliyində işləyən vəzifəli şəxslərdən vasitəçi kimi istifadə etməklə müxtəlif rayonlarda əlillər üçün fərdi yaşayış və internat evlərinin tikinti-təmirinin aparılması işlərini yerinə yetirən fiziki və hüquqi şəxslərə ayrılmış pul vəsaitlərinin bir hissəsinin tələb edilərək alınmasına əsaslı şübhələr müəyyən edildi. Həmçinin Müslümovun nazirliyin Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən ölkə ərazisində istehsal, sosial-məişət və iaşə təyinatlı obyektlərin inşası və yenidən qurulması zamanı əməyin mühafizəsi tələblərinə əməl olunması, onların istismara buraxılmasına razılığın verilməsi, əməyin mühafizəsi tələblərinə uyğunluğu ilə bağlı müəssisələrdə aparılmış yoxlamaların nəticələrinə görə müxtəlif vaxtlarda külli miqdarda pul vəsaitləri qismində təkrar rüşvət almasına dair məlumatlar əldə olundu. Eyni zamanda, Daxili nəzarət şöbəsi tərəfindən ərazi strukturlarında aparılmış yoxlamaların nəticələri ilə bağlı onun həmin nazirliyin müxtəlif ərazi şöbələrinin rəhbərlərinin hər birindən 10 mindən 30 min manatadək külli miqdarda təkrar rüşvət alması barədə faktlar aşkarlandı.

Nəticədə o, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçildi. Hazırda da dəmir barmaqlıqlar ardında olan eks-nazirin məhkəmə qarşısına çıxarılması gözlənilir.

Müslümovun öz postunu tərk elədikdən sonra işsiz qalan və yeni vəzifə gözləntisi içində olan dayısı isə bu arzusu ilə vidalaşıb. Hazırda 73 yaşı olan Seyidəliyev bir yandan qandallanan bəzi keçmiş icra başçılarının, o biri yandan isə elə bacısı oğlu olan keçmiş nazirin aqibətinə baxıb öz taleyinə şükr edə bilər: kreslosundan məhrum olsa da, ən azından azadlığını itirmədi. Hərçənd, elə onun özü ilə bağlı da genişmiqyaslı araşdırmaların aparılmasına ehtiyac var idi. Çünki Ə.Seyidəliyev Ağsuda icra başçısı olarkən barəsindəki vətəndaş şikayətləri, eləcə də korrupsiya iddiası və ittihamları baxımından rayon rəhbərləri arasında ilk pillələrdə dayanırdı. Lakin həbsdəki keçmiş nazirin dayısı hansısa səbəb, yaxud səbəblərdən bu iddia və ittihamlara görə hüquqi məsuliyyətə cəlb edilmədi.

Böyük ehtimalla indi o, çox arzulamağına baxmayaraq yeni vəzifə ala bilməsə də, ən azı azadlıqda olduğuna görə taleyə şükr eləyir...

Bir sözlə, yazımızın alt başlığında verdiyimiz sualın (yəni, "həbsdəki sabiq nazirin keçmiş icra başçısı olan dayısı hardadır?") cavabı özlüyündə aydındır - harda olsa belə, hər halda həbsdə deyil? Halbuki Mahir Quliyev, yaxud Alimpaşa Məmmədov, ya da Vilyam Hacıyev və İsmayıl Vəliyev kimi qandallanmış icra başçılarının siyahısına o da əlavə oluna bilərdi...

**_Sənan Mirzə_**

**6.3.13. informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Müasir texnologiyanın idarəetmə sisteminə tətbiqi...

## "Rəqəmsal İcra Hakimiyyəti" portalı vətəndaşların işini asanlaşdıracaqmı?



***Dövlət qurumlarının xidmətlərinin elektronlaşdırılması vətəndaşlara xidmətləri onlayn almaq üçün fürsət yaradır. Vaxt itirmədən, elektron yolla dövlət qurumunun göstərdiyi xidmətdən yararlanmaq məmur süründürməçiliyinin qarşısını almaqla yanaşı, əlavə vaxt itkisini də aradan qaldırır.***

Vətəndaşların ən çox istifadə etdikləri isə yerli icra hakimiyyəti orqanlarının göstərdikləri xidmətlərdir. Bəs görəsən bu qurumların xidmətləri elektronlaşdırılıbmı? Yerli icra hakimiyyətləri onlayn xidmətlərdə vətəndaşlar üçün nə qədər əlçatandır?

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzindən (EHİM) bildirilib ki, artıq Mərkəz tərəfindən "Rəqəmsal İcra Hakimiyyəti" portalı yaradılıb. Portala, Naxçıvan Muxtar Respublikası istisna olmaqla bütün icra hakimiyyətləri - 77 yerli icra hakimiyyəti orqanları inteqrasiya olunub. Portalın yaradılmasında əsas məqsəd yerli icra hakimiyyətlərinin xidmətlərinin elektronlaşdırılması, data əsaslı çevik idarəetmə, vətəndaş məmnuniyyəti və xidmət keyfiyyətinin yaxşılaşdırılmasının təmin olunmasıdır. Portal həm yerli icra hakimiyyəti orqanlarının əməkdaşları, həm də vətəndaşların vaxt və resurslarına qənaət etməyə kömək edəcək. Burada həmçinin, dövlət xidmətlərinin göstərilməsində vətəndaşın iştirakının təmin olunması nəzərdə tutulub, bu məqsədlə portalda xüsusi bölmə yaradılıb. "Rəqəmsal İcra Hakimiyyəti" portalı vasitəsilə regionlarda yerli icra hakimiyyətləri tərəfindən göstərilən xidmətlər arasında elektronlaşdırılması mümkün olan xidmətlər vətəndaşlara onlayn rejimdə təqdim edilir. Regionlarda rəqəmsal hökumət quruculuğu çərçivəsində başlanan bu layihənin tətbiq olunması üçün ilkin mərhələdə Gəncə şəhəri, Masallı və Quba rayonları olmaqla 3 sosial-iqtisadi aktiv rayon seçilib. Bu rayonlar Azərbaycanın hər bir zonasının (Şimal, Cənub və Qərb) təmsil olunmasına, əhali çoxluğuna və eyni zamanda "ASAN xidmət" mərkəzinin yerləşməsinə görə seçilib. "Rəqəmsal İcra Hakimiyyəti" layihəsinin uğurla reallaşdırılacağı təqdirdə gələcəkdə digər rayonlar üçün də işlənərək tətbiqi nəzərdə tutulub: "Qeyd edək ki, Yerli icra hakimiyyətləri xidmətlərinin elektronlaşdırılması Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) maliyyələşdirdiyi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) tərəfindən icra edilən Yerli İnkişaf üçün Yaxşı İdarəetmə proqramı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və müvafiq İcra Hakimiyyətləri ilə birgə həyata keçirilir".

Bəs vətəndaşlar Rəqəmsal İcra Hakimiyyəti Portalında hansı xidmətlərdən yararlana bilərlər?

Mərkəzdən bildirdilər ki, portaldan istifadə etməklə Yerli İcra Hakimiyyətləri tərəfindən göstərilən 9 xidmət və "Bir pəncərə -Tikintiyə icazə" sisteminə keçid ilə təmin olunan 3 xidmətdən istifadə mümkündür. Buraya fiziki şəxs üzərində patronajın təyin edilməsi, yaşayış sahəsinə ehtiyac olan qismində vətəndaşların uçota alınması kimi sosial xidmətlər daxildir. Həmçinin siyahıya on dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanlar üzərində, habelə spirtli içkilərdən, narkotik vasitələrdən və ya psixotrop maddələrdən sui-istifadə etməsi və ya qumara qurşanması nəticəsində fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılmış fiziki şəxslər üzərində himayəçilik təyin edilməsi də var. Xidmətlərin siyahısında on dörd yaşı tamam olmamış yetkinlik yaşına çatmayanlar, habelə psixi pozuntuya görə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxslər üzərində qəyyumluq təyin edilməsi də yer alıb . Elektron xidmətlər siyahısında Qəyyumluqda Və Himayədə Olanların Əmlakı Barədə Rəy (icazə) Verilməsi, uşağın adının və soyadının dəyişdirilməsinə icazə verilməsi, yetkinlik yaşına çatmayan şəxsin mülkiyyətində olan daşınar və daşınmaz əmlakın üzərində notarial hərəkətlərin aparılmasına dair razılığın verilməsi də var.

Vətəndas?lara ailə vəziyyətini təsdiq edən arayıs?lar və digər arayıs?ların verilməsi, yas?ayıs? sahəsinə ehtiyacı olan s?əxs qismində uc?ota alınmıs? əlilliyi olan s?əxs vəfat etdiyi halda həmin uc?otun onun ailə u?zvləri u?c?u?n saxlanılması, fermer fəaliyyəti və aqrar subsidiyalara müraciət üçün də portaldan yararlana bilərlər.

Azərbaycanda yerli icra hakimiyyəti orqanları tərəfindən göstərilən elektron xidmətlərin sayının artırılması və səmərəliliyinin yüksəldilməsi məqsədilə həmin xidmətlərin Elektron Hökumət Portalına inteqrasiya olunmuş vahid rəqəmsal icra hakimiyyəti portalı üzərindən göstərilməsi, Prezident İlham Əliyevin təsdiqlədiyi "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda öz əksini tapıb.

Sənədə əsasən, yerli icra hakimiyyəti orqanları tərəfindən göstərilən elektron xidmətlərin sayının artırılması və səmərəliliyinin yüksəldilməsi məqsədilə həmin xidmətlərin Elektron Hökumət Portalına inteqrasiya olunmuş vahid rəqəmsal icra hakimiyyəti portalı üzərindən göstərilməsi hədəflənib.

Qeyd edək ki, Mərkəz tərəfindən yaradılan milli resurslar, mərkəzləşdirilmiş və depozitar həllər, aparılan texniki optimallaşdırma işləri, habelə dövlət-özəl tərəfdaşlığı layihələri sayəsində 40 milyon manatdan çox dövlət vəsaitinə qənaət edilib. EHİM tərəfindən cari ildə, habelə növbəti illərdə yeni rəqəmsal hökumət həllərinin yaradılması və bununla da əlavə olaraq 50 milyon AZN-dən çox dövlət vəsaitinə qənaət edilməsi nəzərdə tutulub.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# MEDİA-nın ADA Universiteti ilə birgə təşkil etdiyi seminarlar başa çatıb

***Medianın İnkişafı Agentliyi (MEDİA) ilə ADA Universitetinin birgə imzaladığı əməkdaşlıq memorandumu çərçivəsində dövlət sektorunda fəaliyyət göstərən qurumların mətbuat xidmətlərinin rəhbərləri, ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşları üçün təşkil edilən "Media və kommunikasiya siyasəti medianın gözü ilə" mövzusunda silsilə seminarların bağlanış mərasimi keçirilib.***

MEDİA-dan "Unikal"a bildirilib ki, seminarları uğurla bitirən 40 iştirakçıya sertifikatlar təqdim edilib.

İki həftə davam edən silsilə seminarlarda yerli və xarici mu?təxəssislər tərəfindən media ilə əlaqələrin qurulması, kommunikasiya strategiyalarının səmərəli şəkildə işlənilməsi, ənənəvi və sosial media ilə işə proaktiv yanaşaraq daha keyfiyyətli ictimai məzmunun yaradılması mövzularında çıxışlar, interaktiv mu?zakirə sessiyaları təşkil olunub.

Seminarların bağlanış mərasimində iştirakçılar təəssüratlarını bölüşərək əldə etdikləri biliklərin gələcək fəaliyyətlərinə faydalı olacağını bildiriblər.

Qeyd olunan seminarlar ötən il ərzində dövlət qurumlarının media subyektləri ilə əməkdaşlığının genişləndirilməsi və qarşılıqlı kommunikasiya əlaqələrinin təkmilləşdirilməsi, eləcə də müasir media mühitində ictimaiyyəti məlumatlandırma mexanizmlərinin daha səmərəli qurulması məqsədilə mətbuat katibləri üçün ADA Universiteti ilə birgə təşkil edilən silsilə seminar və təlimlərdən əldə edilən uğurlu təcrübəyə əsaslanaraq həyata keçirilib.

# Nazir müavini Paraqvay Senatında görüşlər keçirdi

***Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov 10 may 2022-ci il tarixində Paraqvay Senatın sədri Oskar Salomon, senatda Paraqvay-Azərbaycan dostluq qrupunun rəhbəri Lukas Akino, xarici əlaqələr komissiyasının üzvləri və Paraqvayın müxtəlif ticarət palatalarının rəhbərləri ilə görüş keçirib.***

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Unikal" verilən məlumata görə, görüş zamanı tərəflər ikitərəfli parlamentlərarası münasibətlərin genişləndirilməsinin vacibliyini, ikitərəfli əməkdaşlığın hərtərəfli inkişafının zəruriyyətini vurğulayıblar.

Həmin gün nazir müavini Elnur Məmmədov, həmçinin Paraqvayın Deputatlar Palatasının xarici əlaqələr komissiyasının sədri və Paraqvay-Azərbaycan dostluq qrupunun rəhbəri Uolter Harmsla da görüş keçirib.

Azərbaycan rəsmisi Paraqvayın ölkəmizin ərazi bütövlüyü və suverenliyinə davamlı dəstəyinə, o cümlədən Paraqvay Parlamenti tərəfindən Xocalı soyqırımın tanınmasına dair qəbul olunmuş qətnaməyə görə təşəkkür edib.

Görüşdə, həmçinin Azərbaycan və Paraqvay arasında beynəlxalq parlamentlərarası təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Vəkil Fikrət Məmmədova bu qanunsuzluqla bağlı müraciət etdi



***Vəkillər Kollegiyasının üzvü Bayramov Bəhruz Front oğlu ədliyyə naziri Fikrət Məmmədova müraciət edib.***

"Unikal" xəbər verir ki, Bəhruz Bayramov müvəkkili N.H-nın ödədiyi 282 min 630 manat pulun Səbail Rayon İcra Məmuru Aslanov Aslan Fuad oğlu tərəfindən qeydə alınmadığını bildirib. Onun sözlərinə görə, icra məmuru Bakı Apellyasiya Məhkəməsinin 2(103)-5062/2017 saylı, 23.08.2017-ci il tarixli icra sənədinin icrası ilə bağlı borcluya məxsus Bakı şəhəri, Yasamal rayonu, K.Kazımzadə küçəsi ev 115, mənzil 18, Bakı şəhəri, Yasamal rayonu, K.Kazımzadə küçəsi ev 115, mənzil 15, Bakı şəhəri, Yasamal rayonu, K.Kazımzadə küçəsi ev 115-də yerləşən 15 kv.m qeyri-yaşayış sahəsi, Bakı şəhəri, Yasamal rayonu, İsmayılbəy Qutqaşınlı küçəsi ev 99-da yerləşən 114 kv.m qeyri yaşayış sahəsi borcun qismən ödənilməsi hesabına tələbkara verilməli və onun adına rəsmiləşdirilməsi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə həvalə edilməsi barədə qərar qəbul edib.

Vəkil Bəhruz Bayramov nazirə ünvanladığı müraciətdə bunları bildirib:

"Bakı Apellyasiya Məhkəməsinin 2(103)-5062/2017 saylı 23.08.2017-ci il tarixli İcra sənədi üzrə borclunun nümayəndəsi olaraq Səbail Rayon İcra şöbəsində icra işində iştirak etmişəm. 17.03.2018-ci il tarixdə Səbail İcra Şöbəsi icraata başladıqdan sonra icra məmurunun razılığı ilə tələbkarın bank hesabına ödənişlər edilib. Ödənişlər 21.04.2018-11.07.2019-cu il tarixləri əhatə edib. Ödənilən məbləğin qəbzləri rəsmi qaydada icra məmuruna təqdim olunaraq və qəbul olunub.

Nümayəndəsi olduğum şəxsin tələbkar qarşısında hər hansı başqa öhdəlik, pul vəsaitinin ödənilməsinə dair icra sənədləri olmayıb. Ödənilən 282.630 manat pul vəsaitini Səbail Rayon İcra məmuru hesaba almır, ödənilən pul vəsaitlərinin təqdim olunan qəbzlərinə hər hansı münasibət bildirilmir. İcra məmuru qərarı vəsaitləri borclunun daşınmaz əmlaklarına yönəldir.

Cənab Nazir!

Sizə müraciətimdən sonra ümid edirəm ki, icra işi ilə bağlı baş vermiş bu ciddi qanun pozuntusu araşdırılacaq və bu iş üzrə ədalətli qərar qəbul ediləcək".

## Deputat rublun gələcək taleyindən danışdı



***Rusiya valyutasının dollara nisbətən yenidən dəyər itirməsi gözləntiləri yüksəkdir.***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, biznes yeni bazarlar, rusiyalı turistlər isə yeni ölkələr axtarır:

"Deməli, yenidən idxalın artması və tursit səfərlərinin sayının çoxalması müşahidə olunacaq. Bu isə rubla tələbi yenidən artıracaq. Digər tərəfdən, valyuta bazarındakı məhdudiyyətləri uzun müddət saxlamaq real deyil və bu da kursa təsir göstərəcək. Müharibə davam edərsə, Qərb mərhələli şəkildə Rusiya enerji məhsullarının idxalından imtina edəcək və sanksiyalar iqtisadiyyata daha təsirli olacaq ki, bu da rubla təsirsiz ötüşməyəcək.

Məhdudlaşdırıcı alətlərə baxmayaraq yenidən rublun dollara nisbətən ucuzlaşması istisna deyil. Rubl üçün ən çətin an Avropa İttifaqının Rusiyanın enerji məhsullarının alışından imtina etməsi ola bilər. Bu halda Avropaya yalnız neft ixracatından Rusiya illik 104 milyard dollar itirəcək. Digər daxilolmaların, xüsusən də mavi qaz satışından gəlirlərin azalmasını da nəzərə alsaq, valyuta bazarındakı tarazlığın uzun müddət qorunub saxlanılması asan olmayacaq".

# Subbakalavrların qeydiyyatı başladı

***Ali təhsil müəssisələrinə qəbul olmaq istəyən subbakalavrların qeydiyyatı başlanıb. Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib.***

Bildirilib ki, subbakalavrlar Dövlət İmtahan Mərkəzinin internet saytının ekabinet.dim.gov.az səhifəsində "Şəxsi kabinet" yaratdıqdan (kabineti olmayanlar) sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə daxil olub "Subbakalavrın elektron ərizəsi" formasını təsdiq edirlər.

Subbakalavra aid təhsil məlumatları "Tələbə-Məzun" dövlət elektron məlumat sistemindən avtomatik əldə olunur.

Bu məlumatları tam olmayan subbakalavrlar elektron ərizəsinə daxil olub "Yadda saxla" düyməsini basdıqdan sonra bitirdiyi orta ixtisas təhsili müəssisəsinə avtomatik elektron sorğu göndəriləcək. Tələb olunan məlumatlar orta ixtisas təhsili müəssisəsinin məsul şəxsləri tərəfindən sistemə yerləşdirildikdən sonra subbakalavra "sms" xəbərdarlıq gələcək. Xəbərdarlıq gəldikdən sonra subbakalavr elektron ərizəsini təsdiq etməlidir. Təhsil müəssisələri sistemə daxil edilmiş bu məlumatların həqiqiliyinə görə məsuliyyət daşıyır.

Xatırladaq ki, subbakalavrın "Şəxsi kabinet"ində qeyd olunan mobil telefon nömrəsi özünə məxsus deyilsə və ya nömrə dəyişilibsə, "Şəxsi kabinet"dəki "Əlaqə məlumatları" bölməsində mobil telefon nömrəsində düzəliş etməlidir.

Qeyd olunan tarixlərdə ərizəsini təsdiq etməyən subbakalavrlar müsabiqəyə buraxılmayacaqlar.

Müsabiqədə iştirak ödənişsizdir.

Bitirdikləri ixtisasa müvafiq xüsusi qabiliyyət tələb edən ixtisaslar (XQTİ-lər) üzrə ali təhsil almaq istəyən subbakalavrlar 27 may saat 23:59-dək ərizələrini təsdiq etməlidirlər. Onlar daha sonra təhsil almaq istədikləri ixtisasın aid olduğu komissiya üzrə də göstərilən tarixədək verilən linkdə (https://eservices.dim.gov.az/erizebak/subbak/) qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan keçmiş subbakalavrlar müəyyən olunacaq cədvəl üzrə DİM tərəfindən elan olunacaq tarixlərdə qabiliyyət imtahanında iştirak edəcəklər. Qabiliyyət imtahanlarında iştirak ödənişlidir.

XQTİ-ləri yalnız bu ixtisaslar üzrə qabiliyyət imtahanlarında iştirak edən və müsabiqə şərtlərini ödəyən subbakalavrlar seçə bilərlər.

Hərbi çağırışçıların müsabiqədə iştirak etmək üçün möhlət haqqında arayışı və hərbi sənədlərində bu barədə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin qeydiyyatı olmalıdır. Möhlət hüququnu və ya çağırışdan azad edilməsini təsdiq edən məlumatlar Xidmətin müvafiq idarəsi tərəfindən elektron məlumat bazasına daxil edilməlidir. Hərbi qeydiyyatın aparılması Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən təsdiq edilən qaydalarla tənzimlənir.

Qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə qəbul olmaq istəyən subbakalavrlar cari ildə imtahan verərək ali təhsil müəssisələrinin müsabiqəsində iştirak etmək istəyən abituriyentlərlə eyni vaxtda (tarixlər elan olunacaq) ixtisas seçimində (müsabiqədə) iştirak edəcəklər. Subbakalvrlar ixtisas seçimində Dövlət İmtahan Mərkəzinin müvafiq ixtisas qrupları (ixtisaslar) üzrə müəyyən etdiyi minimal müsabiqə şərti balı ilə iştirak edəcəklər.

Müsabiqənin keçirilməsi

1. İxtisas seçimi başa çatdıqdan sonra ali təhsil müəssisələrinin ixtisaslarının qəbul planı və dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu çərçivəsində əvvəlcə abituriyentlərin, bundan sonra isə subbakalavrların müsabiqə əsasında yerləşdirilməsi aparılır. Yerləşdirilmə elektron ixtisas seçimi ərizəsində qeyd olunan ixtisasların ardıcıllığı nəzərə alınmaqla həyata keçirilir.

Eyni bir yerə iddia edən iki və daha artıq subbakalavrı fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:




Orta ixtisas təhsili pilləsi üzrə ümumi orta müvəffəqiyyət göstəricisi;

Təhsil haqqında sənədə (attestata) tədris dili, ədəbiyyat, xarici dil, riyaziyyat, Azərbaycan tarixi, ümumi tarix, fizika, kimya, biologiya, coğrafiya fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası.

2. Cari ildə qəbul imtahanında iştirak edən subbakalavr öz istəyindən asılı olaraq, həm imtahanda topladığı bal ilə abituriyent kimi ümumi qaydada, həm də subbakalavr kimi qəbul imtahanında iştirak etmədən orta ixtisas təhsili səviyyəsində bitirdiyi ixtisasa uyğun ali təhsil pilləsinin ixtisasları üzrə müsabiqədə iştirak edə bilər.

Subbakalavrlar ali təhsil müəssisələrinin ixtisaslarını seçərkən tədris dili orta ixtisas təhsili pilləsində təhsil aldıqları dilə uyğun ixtisasları seçə bilərlər.

Subbakalavrlar xarici dil fənni üzrə əlavə tələblər qoyulan ixtisasları seçə bilməzlər. Çünki bu ixtisaslar üzrə xarici dil fənninə bal məhdudiyyəti tətbiq olunur və subbakalavrlar imtahanda iştirak etmədikləri üçün bu ixtisasları seçə bilmirlər.

Subbakalavrların qəbul imtahanlarında iştirak etmədən "ADA" Universiteti və Bakı Ali Neft Məktəbinin ixtisaslarına müsabiqə yolu ilə qəbulu aparılmır.

Cari ildə qəbul imtahanında iştirak etmiş subbakalavrlar öz seçimindən asılı olaraq, imtahanda topladığı bal ilə və ya DİM-in müvafiq ixtisas qrupları üzrə müəyyən etdiyi minimal müsabiqə şərti balı ilə müsabiqədə iştirak edə bilərlər.

İxtisasların uyğunluğu, yəni subbakalavrın bitirdiyi ixtisasdan asılı olaraq seçə biləcəyi ali təhsil müəssisələrinin ixtisaslarının siyahısı, müsabiqə şərtləri və digər zəruri məlumatlar ixtisas seçiminə qədər "Abituriyent" jurnalının xüsusi buraxılışında təqdim olunacaq.

# Torpaqların şoranlaşmasının qarşısı alınır

***Kollektorlar lildən təmizlənir, torpaqların şoranlaşmasının qarşısı alınır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Mil-Qarabağ və Aşağı Şirvan kollektorlarının istismarı idarəsi respublikanın 6 rayonuna xidmət edir. İdarənin xidmət etdiyi kollektorun uzunluğu 5 min km-ə yaxındır. Hər il idarənin texnikaları vasitəsilə kollektor-drenaj şəbəkələrində lildən təmizləmə işləri həyata keçirilir ki, bununla da torpaqların şoranlaşmasının qarşısı alınır. 2021-ci ildə illik plana əsasən Zərdabda 1, Kürdəmirdə 1 və Ağsu rayonu ərazisində 1 ədəd sukeçirici əsaslı təmir edilib. Bundan başqa 78 ədəd hidrotexniki qurğu, 2 ədəd hidrometrik post və 5 ədəd meliorativ nasos stansiyasında cari təmir işləri yerinə yetirilib. Ötən il ərzində ümumi olaraq 1600 min kub metrə yaxın kollektorların lildən təmizlənməsi işləri görülərək tamamlanıb.***



Mütəmadi olaraq kollektorların lildən təmizlənməsini həyata keçirən Mil-Qarabağ və Aşağı Şirvan Kollektorlarının İstismarı idarəsi balansında olan 5 ədəd nasos stansiya vasitəsilə qrunt sularını ərazilərdən kənarlaşdırır. Bu nasos stansiyalar hesabına ilin əvvəlindən bu günə qədər 266 min kub metr qrunt suları ərazidən kənarlaşdırılıb. Ümumiyyətlə 2022-ci ilin 1-ci rübü ərzində Kürdəmir rayonu ərazisində olan kollektorlarda 72 min kub metr, Zərdab rayonu ərazisində 62 min, Ağsu rayonu ərazisində 45 min kub metr lildən təmizləmə işləri yerinə yetirilib. Ümumilikdə isə idarə kollektorlarda 179 min kub metr lildən təmizləmə işlərini reallaşdırıb.

Qeyd edək ki, Mil-Qarabağ və Aşağı Şirvan Kollektorlarının İstismarı idarəsi Yevlax, Bərdə, Zərdab, Kürdəmir, Ağsu və Ağcabədi rayonlarında kollektorların lildən təmizlənməsini təmin etməklə bərabər balansında olan meliorativ obyektlərə xidmət edir.

Çaylarda mühafizə tədbirləri görülür, idarə 12 rayonda tədbirləri davam etdirir. Şərifov bildirib ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin tabeliyində olan Kür-Araz çaylarında Bəndlərin İstismarı idarəsi qrafikə uyğun olaraq öz işini davam etdirir. İdarənin vəzifəsi əhalini, yaşayış məntəqələrini, kənd təsərrüfatı və xalq təsərrüfatı obyektlərini çaylarda baş verən daşqın və sel sularının zərərli təsirlərindən qorumaqdan ibarətdir. Bu məqsədlə Kür-Araz çaylarında Bəndlərin İstismarı İdarəsi respublikanın 12 rayonunda, idarənin xidməti ərazisinə daxil olan ərazilərdə fəaliyyət göstərir. İdarənin balansında 1491 km-dən artıq mühafizə bəndi var. Ondan 936 km Kür çayında, 134 km-dən çoxu Araz çayında, 421 km-i isə dağ çayları və göllərin mühafizə bəndləridir. Mühafizə bəndlərində 137 hidrotexniki qurğu mövcuddur ki, həmin hidrotexniki qurğuların da vaxtaşırı təmiri həyata keçirilir. Hazırda idarənin balansında olan Girdimançayda mühafizə tədbirləri ilə əlaqədar olaraq bəndbərkitmə və məcratəmizləri işləri davam edir.

Genişmiqyaslı görülən tədbirlər çərçivəsində çayların sərt döngələrində sahilyuma prosesləri nəticəsində yaranmış təhlükəli vəziyyətləri aradan qaldırmaq məqsədilə 2012-ci ildən 2021-ci ilə qədər 14660 metr məsafədə daş-betonla sahilbərkitmə işləri yerinə yetirilib. Ötən il idarə tərəfindən mühafizə tədbirlərinin icrası olaraq Kür, Araz və dağçaylarında 108 km-ə yaxın bəndin təmiri, 121 km-dən artıq qayakəsmə işləri 17 km-ə yaxın uzunluqda məcranın təmizlənməsi işləri başa çatdırılıb. Əlavə olaraq mühafizə bəndlərinə təhlükə yarana biləcək yerlərdə qaya uçqunlarının qarşısını almaq məqsədilə 2250 metr məsafədə daş-betonla sahilbərkitmə işləri aparılıb. 2022-ci ilin əvvəlindən bu günə kimi cari təmir planları əsasında 17 km-ə yaxın məsafədə mühafizə bəndlərinin təmiri, 21 km qayakəsmə işləri və 6 km uzunluğunda məcratəmizləmə işləri həyata keçirilib. Bütün görülən işlərin yerinə yetirilməsində 19 ədəd ekskovator, 18 ədəd buldozer və 20 ədəd yükü özü boşaldan maşınlar istifadə edilib.

Qeyd edək ki, Kür-Araz çaylarında Bəndlərin İstismarı İdarəsi respublikanın 12 rayonunda, xidməti ərazisinə daxil olan Qazax, Zərdab, Ucar, Ağcabədi, Kürdəmir, İmişli, Saatlı, Sabirabad, Şirvan, Hacıqabul, Salyan və Neftçala rayonlarında əhalini, yaşayış məntəqələrini və kənd təsərrüfatı obyektlərinin sel sularından qorumaq üçün fəaliyyətini davam etdirir.

***Hüseyn İsgəndərov***

# Tarix yazan zirvə qartalı



***İkinci Qarabağ müharibəsində 30 il əsir düşən Vətən torpaqları uğrunda canından keçməklə xalqımıza şanlı qələbə yaşadan Cavid Vaqif oğlu Zeynalov Yardımlı rayonunun Mirimli kəndində boya-başa çatmışdı. Vətənin müqəddəsliyinə tapınmaqla yetkinlik yaşına çatan Cavid ömrünü onun üçün yaşamağı qarşısına əsas məqsəd qoyur. Bu amalla orta məktəbi bitirib Lənkəran Tibb Kollecinə daxil olur. Xalqa, el-obaya ləyaqətlə, təmənnasız xidmət etməkdən ötrü feldşer ixtisası üzrə oxuyub-öyrənməkdən doymur.***

Cavidin əsgər yaşı çatanda Milli Ordu sıralarına yola düşür. Cəbhə bölgəsində xidmətə başlayan gündən cəsur, qorxmaz, Vətənini göz-bəbəyi tək qoruyan, düşmənin hər bir hərəkətini izləyən əsgər olaraq tanınır. Erməni dığalarına sonsuz nifrət bəsləməklə komandirlərin tapşırıqlarını uğurla yerinə yetirir. Beləcə əsgər yoldaşları arasında seçilən, sevilən Cavid Vətən qarşısında borcunu üzüağ yerinə yetirib ailəsinə qayıdır.

El-obada hamının hörmət göstərdiyi gənc oğlan təhsilini başa vurur. Bir il Yardımlıda insanların sağlamlıq keşiyində durur. Qaldı ki, canına yağı dadanmış yurdun taleyi onu həmişə narahat edir. Qəlbi Vətəninə, torpağına məhəbbətlə döyünən Cavid rahat həyatını qoyaraq, könüllü olaraq özünü hərbiyə bağlayır. 2013-cü ildən orduda hərbi feldşer kimi fəaliyyət göstərir. Və məqamı gələndə məkrli düşmənlə son nəfəsinə qədər döyüşərək qisasını alacağına and içir.

C. Zeynalov öz işini layiqincə görür. Həmişə Qarabağın tezliklə azad olmasını düşünür, hər bir əsgərə, zabitə olan sevgisi sanı ilahidən gəlir. Yağı düşmənlə üz-üzə gələndə təcavüzkara yerini göstərə bilir. İgid əsgər Aprel döyüşlərində isə sözün əsl mənasında düşmənin anasını ağladır, neçə-neçə şəhidin qisasını alır. Cavidin yaşının çərçivəsinə sığmayan qəhrəmanlığı bir daha onu əsgər yoldaşların, komandirlərin gözündə ucaldır. 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalına layiq görülür. Baş çavuş erməni dığaların üzərində qazanılan qələbə gününə hazırlaşır.

Nəhayət ki, Cavidin arzuladığı gün gəlir. Vətən yolunda canından keçməyə hazır olan qəhrəman İkinci Qarabağ müharibəsi başlanan günü xalqımızın mərd oğullarına qoşulub cəbhənin ən qızğın yerlərinə gedir. Yaralı əsgərlərə tibbi yardım göstərməklə bərabər, həm də düşmənə sarsıdıcı zərbələr endirir. Azad olunan Qarabağ torpaqlarında Azərbaycanın bayrağı ucaldıqca ürəyi dağa dönür. " Biz mütləq qələbə qazanarıq"- deməklə əsgər yoldaşlarını da irəliyə aparır. Vətən sevdalısının son döyüş yeri Füzuli olur. Burada müqəddəs şəhidlik zirvəsinə ucalaraq, əbədiyyət adlı dünyasına qovuşur. Milyonların qəlbində yaşamaqla, doğma Mirimli kəndində canından artıq sevdiyi Vətən torpağının sinəsinə baş qoyur. Yardımlı camaatı qəhrəman oğlunun uyuduğu torpağı özlərinə and yeri bilir, hər yerdə, hər zaman onun adını qürurla çəkirlər. Dövlət də Cavidin müharibə meydanda göstərdiyi şücaətini "Vətən uğrunda", "Cəsarətli döyüşçü", digər medallarla layiqincə qiymətləndirib.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Apreldə 10 nəfər minalardan xəsarət alıb

***Vətəndaşlarımız mütəmadi olaraq, o cümlədən Ermənistan tərəfinin xəritələri təqdim etməsindən, habelə iki dövlət liderinin Brüssel görüşündən sonra da mina qurbanına çevrilirlər.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan XİN-in Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib.

O qeyd edib ki, bu ilin yalnız aprel ayında baş vermiş 9 hadisə nəticəsində 10 nəfər minalardan xəsarər alıb.

# Şəkidə ev yandı

***Şəkidə evdə yanğın olub. "Unikal" Fövqəladə Hallar Nazirliyinin saytına istinadən xəbər verir ki, Şəki şəhərinin Zunud kəndində ümumi sahəsi 180 m² (hər mərtəbəsi 90 m²) olan ikimərtəbəli 4 otaq və 2 aynabənddən ibarət evin yanar konstruksiyaları və içərisindəki ev əşyaları yanıb.***

Yanğın zamanı evin içərisində həcmi 50 litr olan 1 ədəd məişət qaz balonu yanğınsöndürənlər tərəfindən təhlükəsiz əraziyə çıxarılıb. Bitişik köməkçi tikili yanğından mühafizə olunub. Yanğın yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.

# Sloveniyada kimya zavodu partlayış - 20-dən çox yaralı var



***Sloveniyanın cənubundakı Koçevye şəhərində kimya zavodunda partlayış baş verib.***

"Unikal"ın məlumatına görə, hadisə nəticəsində 20-dən çox insan xəsarət alıb.

Ağır yanıq xəsarətləri alan iki nəfər paytaxt Lyublyanada xəstəxanaya aparılıb. Partlayış nəticəsində zavodun binasına ciddi ziyan dəyib.

Partlayışdan sonra zavodda yanğın başlayıb, bir müddət sonra yanğının qarşısını almaq mümkün olub.

Həmin zavod tikinti və tekstil sənayesi üçün qatran istehsal edir.

# Türk komandosu 10 terrorçunu məhv etdi

***Türkiyə ordusu "Zeytin Dalı" və "Barış Pınarı" əməliyyat zonasında 10 PKK/YPG terrorçusunu zərərsizləşdirib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin açıqlamasında deyilir. Bildirilib ki, atəş açaraq hücuma hazırlaşan 10 PKK/YPG terrorçu Türk komandosunun uğurlu müdaxiləsi ilə məhv edilib.

*Ağarza Elçinoğlu*

# Ukrayna Təhlükəsizlik Xidməti terror aktının qarşısını aldı



***Ukrayna Təhlükəsizlik Xidməti Zaporojyada terror aktının qarşısını alıb və onu törədən şəxsi saxlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Təhlükəsizlik Xidməti məlumat yayıb.

"Cinayətkar 1966-cı il təvəllüdlü Dnepr sakini olub. O, Zaporojyedə xaos və çaxnaşma səpmək istəyirdi, bunun üçün şəhərin mərkəzindəki kütləvi toplantıda cinayət planlaşdırırdı.Həmin şəxs partlayıcı qurğunu özü düzəldib və onu qoltuqaltının altına gizlədib", - deyə məlumatda qeyd olunub.

# "Əbu Akleh güllələnərkən əsgərlərdən 150 metr aralıda olub"

***İsrail ordusunun ilkin araşdırmasına görə, Əbu Akleh güllələnərkən əsgərlərdən 150 metr aralıda olub.***

"Unikal" xəbər verir ki, İsrail ordusunun ilkin təhqiqatı göstərib ki, Əbu Akleh başından güllə yarası alan zaman İsrail hərbçilərindən təxminən 150 metr aralıda olub. Haaretz bildirir ki, güllənin diametri 5,56 millimetr olub və M16 tüfəngindən vurulub. Araşdırmaya görə, Aklehin İsrail atəşi, yoxsa "Fələstin silahlıları" tərəfindən öldürüldüyü hələ də bəlli deyil.

*Aynurə*

# "Ukrayna ilə danışıqlarda heç bir dəyişiklik yoxdur" - Peskov

***"Rusiya və Ukrayna arasında danışıqlar prosesində heç bir dəyişiklik yoxdur".***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bu barədə Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə müsahibəsində bildirib.

"Danışıqlara dünəndən bəri heç nə dəyişməyib", - Peskov deyib. Rusiya Federasiyasının sərhədyanı rayonlarının Ukrayna tərəfindən atəşə tutulmasının danışıqlar prosesinə necə təsir göstərə biləcəyi ilə bağlı sualı cavablandıran Kreml sözçüsü vurğulayıb ki, hazırda danışıqlarla bağlı öyünəcək heç nə yoxdur.

# Sarkisyan-Köçəryan cütlüyünün sevimli generalı niyə həbs edildi?



***Xəbər veridiyimiz kimi dünən Xankəndidə erməni general həbs edilib. Qarabağda mövcud olmuş keçmiş separatçı rejimin "Müdafiə Ordusu" komandirinin keçmiş müavini olan Samvel Karapetyan (Oqanovski) adlı həmin şəxsin həsbinin səbəbləri bəlilli olub. "Hraparak" nəşri yazır ki, o, bir qrup gəncin olduğu avtomobilə atəş açıbmış.***

"Xankəndidəki atışmaya görə general Karapetyan həbs edilib" - Erməni mediası"Mənbələrimiz bildirir ki, atışmadan əvvəl generalla gənclər arasında dava düşüb. Karapetyan avtomobilini rəhbərlik etdiyi "Artsax" Azadlıq Döyüşçüləri İttifaqı" ictimai təşkilatının qarşısında saxlamağa çalışıb və giriş bağlı olduğu üçün gənclərdən avtomobillərini yan tərəfə keçirmələrini istəyib. Bu əsnada mübahisə başlayıb, Karapetyan atəş açıb. Güllələr asfalta və maşının qapısına dəyib. Faktla bağlı cinayət işi başlanıb. Prokurorluq əslində S. adlı şəxsin saxlanıldığını bəyan edib", - məqalədə yazılıb.

Qeyd edilir ki, Oqanovskinin həbsi xəbəri rəsmi olaraq təsdiqləməsə də, hüquq-mühafizə orqanlarındakı mənbə yaxın bir neçə saat ərzində bu istiqamətdə vəziyyətin dəyişə biləcəyini bildiriblər.

"Hamı bilir ki, Arayik Arutyunyanın "rəhbər" seçilməsi zamanı Oqanovskinin böyük rolu olub, o, Qarabağın keçmiş "rəhbərlərinə" yaxınlığı ilə seçilir. Bundan əlavə, o, Qarabağ müharibəsinin "qəhrəmanı"dır və onun həbsi daha bir qalmaqala səbəb olacaq. Bu həm də müharibə "qəhrəmanları"na qarşı siyasi təqiblərə başlanıldığı anlamına gələcək. Lakin mənbələrimiz bildirir ki, Ermənistan hüquq-mühafizə orqanları Qarabağdakı "rəhbərlər"ə təzyiq göstərir ki, bu da sonda belə bir həbsə səbəb oldu. Bu yaxınlarda Oqanovski Serj Sarkisyanla bir neçə dəfə meydana gəlib, məşəl yürüşündə iştirak edib. Onu Fransa meydanında da görüblər. İnsanları odlu silahla yaralayan şəxslər, Melikset Poqosyanın oğlu və hamilə qadını avtomobillə vurub öldürən polis, Xaçatur Sukiasyanın qardaşı azadlıqda gəzirsə, o zaman avtomobilin qapısına atəş açmış generalın türmədə yatması çətin ki, real ola bilər", - müəllif yazıb.

Qeyd edək ki, Karapetyan uzun illər işğal altında qalmış Azərbaycan torpaqlarında törətdiyi vəhşiliklər, azərbaycanlıların, o cümlədən dinc əhalinin qətli, vandalizm və barbarlıqları ilə seçilib.

Hərbi cani olan Robert Köçəryanın da əsas silahdaşı sayılan bu general təkcə azərbaycanlıları deyil, erməniləri də amansızlıqla qətlə yetirib. İrəvanda 2008-ci ilin məşhur mart hadisələrinə görə məsuliyyət daşıyanların siyahısında Samvel Karapetyanın da adı var.

*Tural Tağıyev*

# Bu ölkələr NATO-ya üzv olacaq

***Finlandiyanın cümə axşamı NATO -ya üzv olmaq niyyətini rəsmən elan edəcəyi gözlənilir.***




"Unikal" xəbər verir ki, bu barədə diplomatlar və rəsmilər məlumat yayıb.

NATO müttəfiqləri Finlandiya və İsveçin tez bir zamanda qoşulmasını gözləyirlər ki, bu da bir il davam edən ratifikasiya dövründə Şimali regionda hərbi mövcudluğun artmasına yol açır.

Çərşənbə günü Finlandiyanın NATO-ya daxil olmaqla Rusiyanı təxribata çəkib-təxribat etməyəcəyi ilə bağlı sualı cavablandıran Prezident Sauli Niiniste deyib ki, Putin günahkar olacaq.

O, Böyük Britaniyanın baş naziri Boris Consonla keçirdiyi mətbuat konfransında "Mən cavab verərdim ki, buna sən (Putin) səbəb oldun. Güzgüyə bax!",- deyib.

Mayın 11-də Böyük Britaniyanın Baş naziri Boris Conson hər iki Skandinaviya ölkəsinə səfər edərək İsveç və Finlandiya liderləri ilə qarşılıqlı təhlükəsizlik zəmanəti imzalayıb.

Diplomatların verdiyi məlumata görə, hər iki ölkə gələn ilin yayında Alyansa qoşulmaq niyyətindədir.

Finlandiyanın Avropa məsələləri üzrə naziri Titti Tupurainen bu yaxınlarda bildirib ki, ölkənin NATO-ya üzv olmaq üçün müraciət etmək ehtimalı çox yüksəkdir.

*Aynurə Xudaverdiyeva*

# "Başqa təkliflər var" - "Araz"ın kapitanı




***Yüksək Liqanın 2021/22-ci il mövsümünün ən yaxşı oyunçusu seçilən "Araz-Naxçıvan"ın kapitanı Rizvan Fərzəliyev Azərbaycan Futzal Federasiyasının saytına açıqlama verib.***

Qol.az xəbər verir ki, o, son çempionat əvvəlkilərdən bir qədər fərqli keçdiyini deyib: "8 komanda ilə başladıq, yaxşı start götürdük və tempi sona qədər qoruduq. Pley-offda "Baku Fire" komandası ilə 2 matç keçirdik, böyükhesablı qələbələrlə finala adladıq. Həlledici matçda EKOL-la gücümüzü sınadıq. Məncə, rəqibimiz EKOL-da öz növbəsində "Neftçi" İK üzərində layiqli qələbələr qazandı və finalda oynamaq hüququ qazandı. Əsas problem EKOL-un pley-off görüşlərindən itkilərlə çıxmasında idi. Onların 3 əsas üzvü cəzalı duruma düşdüyünə görə, final görüşünü kənardan izlədi. Bu da "Araz-Naxçıvan"ın işini asanlaşdırdı və çempion olduq.

R.Fərzəliyev çempionatda ən çətin oyunlarının əsas mərhələdə EKOL-la son duellərinin olduğunu vurğulayıb: "Həmin görüşdə qələbəni EKOL qazandı. Qırmızı vərəqə aldıq, azlıqda qaldıq və rəqibimiz bundan maksimum istifadə etdi. "Baku Fire" ilə görüşümüz də fərqli alındı. İstədiyimiz oyunu nümayiş etdirə bilmədik, əsəblər tarıma çəkildi və yekunda xallar itirdi. "Neftçi" İK-nı da qeyd etmək istərdim. Onlar da pley-off-da oynamağa layiq idilər.

Bu çempionluq mənim üçün uğurlu oldu. Mövsümün ən yaxşı oyunçusu seçildim. Təbii ki, bu uğuru komandanda yoldaşlarımın, məşqçi heyətinin və öz əziyyətim hesabına qazandım. Çalışmışam hər zaman həm oyunum, həm də meydandankənar davranışım ilə nümunə olum".

Millimizin üzvü karyerası ilə bağlı qəti qərarı yaxın günlərdə açıqlayacağını söyləyib: "Hazırda bu istiqamətdə rəhbərliklə danışıqlar gedir. Başqa təkliflər var. Götür-qoy edəcəm, rəhbərliyin qərarından sonra yekunda xeyirli olan bir qərarın üzərində dayanacam. Detallar barədə indi nəsə demək istəmirəm, bir az səbirli olaq".

# Tiaqo Bezerra: "Desə ki, yetər, karyeramı bitirməyə hazıram"

***"Gələcəyimlə bağlı məsələ hələ açıq olaraq qalır. Hələlik heç bir planım yoxdur".***

Bunu apasport.az saytına açıqlamasında "Neftçi"nin hücumçusu Tiaqo Bezerra deyib.

Braziliyalı forvard "Neftçi" rəhbərliyindən yeni müqavilə ilə bağlı hələlik heç bir təklif almadığını söyləyib: "Neftçi" ilə müqaviləmin sonuna ay yarım vaxt qalıb. Sözləşməm başa çatır. İndiyə qədər yeni müqavilə ilə bağlı danışıq olmayıb. Hər şey meydançadakı çıxışdan asılıdır. Yaxşı performans göstərən oyunçunu hər komanda istəyər. Açığı, indi bu barədə düşünmək də istəmirəm. Həm özüm, həm də komandam üçün mövsümü uğurlu nəticə ilə bitirmək barədə fikirləşirəm".

35 yaşlı "sambaçı" karyerasını bitirmək ehtimalını da istisna etməyib: "Düzdür, karyeramı davam etdirmək istəyirəm. Amma futbol da məni istəməlidir. Futbol mənə nə zaman desə ki, yetər, karyeramı bitirməyə hazıram. Artıq 35 yaşım var, yavaş-yavaş karyeramın sonlarına gəlirəm. Düzü, fiziki və psixoloji cəhətdən özümü yaxşı hiss edirəm. Qəbul edirəm ki, performansım da indikindən daha yaxşı olmalıdır".

Qeyd edək ki, bu mövsüm Premyer Liqada 10 qola imza atan Tiaqo Bezerra "Neftçi"nin ən məhsuldar oyunçusudur.

# Kadi Borqes: "Qurban Qurbanovun fikri məni çox "tutdu"

***"Qurban Qurbanovun şəxsiyyətini tərənnüm etmək üçün xeyli danışmaq olar. Təkcə "Marsel"lə oyunda baş verənlər buna əsl nümunədir. İbrahima Vadjinin əlinə top dəyəndə qolun qeydə alınmadığı epizodu nəzərdə tuturam".***



Apasport.az saytının məlumatına görə, bunu İctimai TV-də yayımlanan "Bol İdman" verilişinin qonağı olan "Qarabağ"ın futbolçusu Kadi Borqes deyib.

Konfrans Liqasının pley-off mərhələsinin "Marsel"lə Bakıdakı oyununda (0:3) məhz Qurbanovun müdaxiləsindən sonra "Qarabağ"ın sayılmayan qolunu xatırlayan braziliyalı yarımmüdafiəçi Ağdam klubunun çalışdırıcısı barədə xoş sözlər deyib: "Söz tapa bilmirəm ki, şəxsiyyət kimi onu necə ifadə edim. "Marsel"lə matçdan sonra Qurban müəllimin mətbuata verdiyi açıqlama ilə tanış oldum. "Biz ancaq doğru yolla, dürüstlüklə uğur əldə etməliyik" fikri məni çox "tutdu". Ümumiyyətlə, o, mənim həyatımda mühüm rol oynayan bir şəxsiyyətdir. Karyeramda dəyişikliklər baş veribsə, ilk növbədə Qurban Qurbanova borcluyam".

Qeyd edək ki, Kadi Borqes cari mövsüm "Qarabağ"ın heyətində keçirdiyi 41 oyunda 17 qol vurub.

## Kevin Medina: "Daha 3 il "Qarabağ"ın şərəfini qoruyacağım üçün çox xoşbəxtəm"




***"Qarabağ"a gəldiyim ilk gündən bəri hər kəslə yaxşı münasibətim və qarşılıqlı hörmətim olub".***

Apasport.az saytının məlumatına görə, bunu "Qarabağ"ın müdafiəçisi Kevin Medina klubun rəsmi saytına açıqlamasında deyib.

29 yaşlı kolumbiyalı futbolçu ağdamlılarla yeni 2 illik müqavilə imzalamasına münasibət bildirib. O, sözləşməsinin müddətini 2025-ci ilə qədər uzatmaq qərarını verməkdə çətinlik çəkmədiyini söyləyib: "Mənim üçün müqaviləni uzatmaq və bu komandada daha bir neçə il qalmaq qərarı çətin olmadı. Daha 3 il bu klubun şərəfini qoruyacağım üçün çox xoşbəxtəm".

Qeyd edək ki, 2020-ci ildən "Qarabağ"ın formasını geyinən Kevin Medina cari mövsümün 38 oyununda 1 qol vurub.

## Riçard Almeyda Azərbaycanda qalır?

***"Qarabağ"ın yarımmüdafiəçisi Riçard Almeyda mövsümün sonunda komandadan ayrılmağa yaxındır.***

Apasport.az saytının məlumatına görə, 33 yaşlı futbolçu yenə karyerasını Azərbaycanda davam etdirə bilər.

Milliləşdirilmiş orta sahə oyunçusu "Sumqayıt"ın maraq dairəsindədir. Mövsümün əvvəlində üçüncü dəfə Ağdam klubuna keçən braziliyalı heç cür özünə əsas heyətdə yer edə bilməyib. Bu üzdən klub yarımmüdafiə xəttinə transfer edərsə, onunla yeni müqavilə bağlamaq barədə düşünməyəcək.

Almeydanın yayda azad agent statusu alması və yerli futbolçu limitində çıxış etməsi "Sumqayıt" rəhbərliyini bu keçidə ümidləndirir. "Gənclik şəhəri" təmsilçisi Riçarda artıq müqavilə təklif edib. Futbolçu digər variantları da nəzərdən keçirdikdən sonra qərarını verəcək.

Qeyd edək ki, Riçard Almeyda 2012-2018-ci illərdə və 2019-cu ildə "Qarabağ"ın formasını geyinib. "Sambaçı" 2020/21 mövsümünü isə "Zirə"də keçirib.

## Simeone 400-ə çatdı

***"Atletiko"nun baş məşqçisi Dieqo Simeone bu komandası ilə La Liqada 400-cü oyununu keçirib.***

Qol.az "Opta"ya istinadən xəbər verir ki, bu, 36-cı turda "Elçe" ilə oyuna təsadüf edib (2:0). "Atletiko" Simeonenin baş məşqçiliyi altında La Liqada 244 qələbə qazanıb, 93 dəfə heç-heçə edib və 63 dəfə məğlub olub.

Həmçinin Simeone yalnız bir klubla 400-cü oyuna çatan üçüncü məşqçidir. Bu göstəricidə rekord Miqel Munyosa (Real", 424) məxsusdur. Luis Araqones isə ("Atletiko") 2-cidir.

## "İnter"dən kimsə məni təpiklə vurdu" - Alleqri

***"Yuventus"un baş məşqçisi Massimiliano Alleqri İtaliya kubokunun finalında "İnter"lə oyunda (2:4) qırmızı vərəqə alaraq qovulmasına münasibət bildirib.***

Qol.az "Football İtalia"ya istinadən xəbər verir ki, o, hakimin qərarını düzgün hesab edib: "İnter"dən kimsə yanımdan keçib məni təpiklə vurdu. Əsəbiləşdim və hakim haqlı olaraq məni meydandan qovdu".

Qeyd edək ki, sözügedən qarşılaşmada Alleqri "İnter"in məşqçisi Massimiliano Farrislə əlbəyaxa olub. Bu səbəbdən qırmızı vərəqə ilə cəzalandırılıb.